# ƏLİQULU EVLƏNİR

*4 pərdə, 5 şəkildə*

## İŞTİRAK EDƏNLƏR

Ə l i q u l u – təsərrüfat işində məsul vəzifəli bir adam
G ö v h ə r – onun arvadı
Q u m r a l – onların qızı, təzəcə institutu bitirmiş müəllimə
X ə l i l – Gövhərin qardaşı, təqaüdçü
K a m a l – Qumralın sevgilisi, təzəcə institutu bitirmiş aqronom
R ö v ş ə n – Kamalın əmisi oğlu, bədən tərbiyəsi təlimatçısı
N a z l ı – Rövşənin arvadı, idarə işçisi
H u m a y – Nazlının ögey bacısı, bağça müdirəsi
Y a s ə m ə n – gənc yazıçı
S ə f ə r – Əliqulunun işçisi
S ə a d ə t – rayon maarif şöbəsinin müdiri
A z a d – sovxoz direktoru, Səadətin əri
Q a r m o n ç a l a n
D o n d u r m a s a t a n

## BİRİNCİ PƏRDƏ

### BİRİNCİ ŞƏKİL

P ə r d ə q a b a ğ ı. Sol tərəfdə telefon budkası, sağda ağac və skamya. Bunlar sona qədər bu cür qalır.

Y a s ə m ə n. Salam, hörmətli tamaşaçılar! Mən yazıçıyam. Adım Yasəməndir. Əlbəttə, siz məni tanımırsınız. Çünki yazdığım əsərlərin heç biri hələ səhnə üzü görməyib. Pyeslərim sönük, yaratdığım obrazlar isə cansız, nəfəssiz kölgə kimi çıxır. Faciə yazıram, hiss eləyirəm ki, tamaşaçılar iştirak edənlərin halına ağlamaqdansa, mənim halıma ağlayacaqlar. Komediya isə heç əlimdən gəlmir. Bir neçəsini yazmışam, yoldaşlara oxuyanda gördüm onlar yazdıqlarıma gülməkdənsə, qəhqəhə çəkib mənə gülürlər. İndi belə qərara gəlmişəm ki, aranızda gəzib dolaşım, işləməyi, həyəcan keçirməyi, gülməyi sizdən öyrənim. Ancaq hələlik mane olmaq istəmirəm. Deyəsən, tamaşa başlanır. Siz

baxın, mən də gedim bir dəstə gül alım. Necə? Gül nəyimə lazımdır? Nazlının anadan olan günüdür. Onu təbrik eləməliyəm. (*Gedir*)

K a m a l gəlib səhnənin sol tərəfində qoyulmuş telefon budkasına girir, nömrəni yığmağa başlayır. Bu zaman pərdə açılır. Əliqulunun evi görünür. Yaxşı bəzənmiş böyük bir otaq. Pəncərənin yanında, tumbanın üstünə qoyulmuş telefon zəng çalır. Q u m r a l tələsik çıxıb dəstəyi götürür.

K a m a l. Alo, Qumral, mənəm, Kamalam, eşidirsən?

Q u m r a l. Kamal, sənsən? Xoş gəlmisən, haradan zəng edirsən?

K a m a l. Aşağıdan, avtomatdan. Səni görmək istəyirəm.

Q u m r a l. Nə vaxt?

K a m a l. Elə bu saat. Sizə gəlirəm.

Q u m r a l. Sonra görüşərik. Evə gəlmək olmaz.

K a m a l. Yox, yox, ananla vacib sözüm var, gəlirəm.

Q u m r a l. Anamla?

K a m a l. Hə, hə, sənin barəndə danışacağam.

Q u m r a l. Mənim barəmdə anamla nə danışacaqsan?

K a m a l. Telefonla deməli deyil, bu saat gəlirəm. (*Telefonun dəstəyini asıb, səhnədən çıxır*)

Q u m r a l. Yox, yox! Alo, alo!.. (*Dəstəyi asır, sevinc və həyəcan içərisində gəzinir*)

G ö v h ə r içəri girir, məlum olur ki, paltar yuyubdur.

G ö v h ə r. Zəng vuran kim idi?

Q u m r a l. Kamal idi.

G ö v h ə r. Bəs deyirdin rayondadır?

Q u m r a l. Bu gün gəlib. (*Anasını qucaqlayır, yavaşcadan qulağına*) Səni görmək istəyir, xahişi var.

G ö v h ə r. Nə xahişi?

Q u m r a l. Mənim barəmdə sənə nəsə demək istəyir.

G ö v h ə r. Onun mənimlə nə söhbəti? Heç üzünü də görməmişəm...

Q u m r a l. Ana can, özün bilirsən ki, mənim dünyada ən çox istədiyim adam sənsən. Öz ürək sözümü sənə deməyim, bəs kimə deyim? Yəqin sizdən razılıq almaq istəyir.

G ö v h ə r (*onun üzünə diqqətlə baxır*). Düzünü de, sevirsən?

Q u m r a l (*gülümsünərək*). Dəli kimi.

G ö v h ə r. Doğrudan da, dəli kimisən. Oğlanın özünə də elə de, sonra çıxıb otursun başımızda... Qız oğlanı qudurtmaz. Min istəyirsənsə gizlət, bir də istədiyini boynuna alma!



Q u m r a l. Heç elə şey olar?

G ö v h ə r. Olar! Adam ürəyini səxavətlə xərcləsə, vaxtından qabaq yanıb kül olar. Bax, mənim kimi. Atan Əliquludan çəkdiyimi çəkmişəm. Mən yarımadım, heç olmasa, sən yarı. Mənim ömrüm-günüm belə keçdi, heç olmasa, sən ağıllı ol.

Q u m r a l. Kamal elə oğlan deyil, ana.

G ö v h ə r. Tərifləmə, hərçənd üzünü görməmişəm, amma bilirəm ki, hamısı bir cürədir. Kişiyə özünü canavar göstər ki, qabağında quzu kimi olsun.

Qapının zəngi çalınır.

Q u m r a l. Gəldi...

G ö v h ə r. Nə tez?

Q u m r a l. Aşağıdan, avtomatdan danışırdı.

G ö v h ə r. Ev yığışdırılmayıb. Tələsik əl gəzdirək.

Ana, qız ev yığışdırırlar.

Q u m r a l. Ana can, sən qapını aç, mən gedim üst-başımı qaydaya salım. (*Qumral çıxır*)

Gövhər qapını açır. Kamal içəri girir.

K a m a l (*evi diqqətlə gözdən keçirtdikdən sonra*). Mənə Qumral lazımdır.

G ö v h ə r. Əyləşin, bu saat çağırım.

K a m a l. Atası evdə yoxdur ki?

G ö v h ə r. Yoxdur.

K a m a l (*dərindən nəfəs alır*). Şükür olsun. Onda xahiş eləyirəm, elə çağırın ki, anası bilməsin.

G ö v h ə r (*təəccüblə*). Anası biləndə nə olar ki?

K a m a l. Utanıram.

G ö v h ə r. Nə üçün utanırsan, ay bala?

K a m a l. Elə belə. Heç bir günahım yoxdur, yenə utanıram.

G ö v h ə r. Təəccüblüdür. İndiki cavanlar günahları olanda da utanmırlar.

K a m a l. Bacı, bu evdə çoxdan işləyirsən?

G ö v h ə r. Nə?

K a m a l. Deyirəm, bu evdə çoxdan işləyirsən?

G ö v h ə r. Bəli. Qumralı öz qucağımda böyütmüşəm.

K a m a l. Hə, onda əsil söz səndə olar, bacı! Anası necə adamdır?

G ö v h ə r (*Kamalın səhv saldığını hiss edib, gülməyini güclə saxlayır*). Adamdır da... Bütün analar kimi o da öz balasını çox istəyir.

K a m a l. Qumral kimi qızı istəməmək olar? Bəs atası necə? Deyirlər yaman canavardır. Heç yaxın düşmək mümkün deyil. Düzdür?

G ö v h ə r. Sən niyə bu evin sirlərini birdən-birə öyrənmək istəyirsən?

K a m a l. Qumralı çox sevirəm. Qorxuram ata-anası razı olmaya.

G ö v h ə r. Sən yaxşı olandan sonra niyə razı olmurlar ki?

K a m a l. Eh, ay bacı, yaxşı-pisə baxan var? Cırt-cırt çəkmə geyib, saçını uzadıb, avara-avara küçələri ölçən oğlan şəhərdə nə qədər istəsən. Bizim kimi rayon adamını sayan yoxdur ki.

G ö v h ə r. Sən yanı Qumralın ata-anasını o qədər qanacaqsız hesab eləyirsən?

K a m a l. Anası barədə bir söz deyə bilmərəm, çünki yaxşı tanımıram, amma atası... (*O yan-bu yana baxır, yavaşca*) Deyirlər, heç ailəsinə də yaxşı baxmır, arvadını dilənçi kökündə saxlayır. Hər şeyin hesabını da, bacı, elə bundan götür. Ailəsini sevməyən adamın sinəsindən ürək əvəzinə daş asılıb. Düz dedim, demədim?

G ö v h ə r. Əcəb dedin, ay oğul. Otursana!..

K a m a l. Yox, oturmuram. Bura bax, sən yaxşı arvada oxşayırsan. Qumralla mənim toyumdan sonra köç bizə. Bu evdə nə var ey... Yaxşımı? Söz verirsən?

G ö v h ə r. Baxarıq. Kaş ki, toyunuz olsun.

K a m a l. Di, get, get, Qumralı bura çağır, amma elə elə ki, anası bilməsin.

G ö v h ə r. Çalışaram. (*Çıxır*)

K a m a l (*öz-özünə*). Qulluqçu ovcumda!.. Qaldı o biriləri... Görək nə olur.

Q u m r a l içəri girir.

Q u m r a l. Kamal, xoş gəlmisən?

K a m a l (*heyran nəzərlərlə onu süzür*). Qumral, nə qəşəngləşmisən!

Q u m r a l. Yaxşı daha, utandırma məni. Nə vaxt gəlmisən?

K a m a l. Elə bu saat. Vağzaldan birbaş bura gəldim.

Q u m r a l. Bəs, niyə yazmamışdın ki, gələcəksən?



K a m a l. Birdən-birə qərara gəldim. Diplomu ki, aldım əlimə, gördüm daha sənsiz bir gün, bir saat, bir dəqiqə yaşaya bilmirəm. Gəlmişəm məsələni qəti həll eləməyə.

Q u m r a l. Bu cür tələsik mən razı deyiləm!

K a m a l. Razı deyilsən? Dayan, dayan, düzünü de, yoxsa, daha məni sevmirsən?

Q u m r a l. Sevirəm.

K a m a l. Sevirsənsə, qurtardı. Elə bu gün ata-ananın razılığını alarıq, toyu başlarıq.

Q u m r a l. Birdən razılıq vermədilər?

K a m a l. Onda səni götürüb qaçaram.

Q u m r a l. Götürüb qaçarsan? Necə?

K a m a l. Keçmişlərdə olan kimi. Səni bürüyərəm yapıncıya, vuraram qoltuğuma, qalxaram atın belinə, ağzını da dəsmal ilə bağlayaram.

Q u m r a l. Ağzımı niyə bağlayırsan?

K a m a l. Çığırmayasan.

Q u m r a l. Niyə çığırıram ki? (*Fikirləşib sözünə davam edir*) Yox, çığırsam, yaxşıdır. Qoy səsimə evdəkilər, qonşular oyansınlar, bizi təqib eləsinlər. Atışma başlansın.

K a m a l. Atlar köpük içində qaçsın, güllələr qulağımızın dibində fit çalıb keçsin. (*Gülüşürlər*)

Q u m r a l. Hayıf ki, bunların heç birisi mümkün olan şey deyil.

K a m a l. Nə üçün?

Q u m r a l. Çünki bizim şəhərdə çıraq ilə də axtarsan at tapa bilməzsən. Bizim evdə isə, nəinki tüfəng, heç dalımızca atmağa daş da yoxdur.

K a m a l. Zarafat elədim, qaçırmaq niyə! Yaxşısı budur, el qaydası ilə toy eləyək.

Q u m r a l. Axı, sən el qaydasından çıxırsan. Özün elçiliyə gəlmisən, elə iş olar?! Atam nə deyər?

K a m a l. Qorxma, mən özüm onunla danışıb, yola gətirərəm.

Q u m r a l. Yox, yox, gözünə görünmə, işləri daha da korlayarsan.

K a m a l. Niyə qorxursan ey?.. Uzaq başı heç ondan soruşmarıq. Birbaş gedərik ZAQS-a...

Q u m r a l. Bir o qalıb. Atam-anam icazə verməmiş, sən mənim nəinki özümü, heç baş yaylığımı da apara bilməzsən.

K a m a l. Qumral! Bu cür də sevgi olar?

Paltarını dəyişmiş G ö v h ə r içəri girir. Kamal ona heç əhəmiyyət vermir.

K a m a l. Neçə ildir ki... (*Qumralın ona işarə etdiyini görüb təəccüblə*) Nə olub ey?..

Q u m r a l. Yavaş, anamı görmürsən?

K a m a l (*təəccüb və heyrət içində*). Bu sənin anandır? (*Qapıya tərəf qaçır*)

Q u m r a l. Kamal, sənə nə oldu?

K a m a l (*həyəcanla*). Hanı mənim şapkam! (*Qapıdan çıxmaq istədikdə, Gövhər onun qabağını saxlayır*)

G ö v h ə r. Hara qaçırsan, ay oğul?!

K a m a l. Mən batdım, mən məhv oldum...

Q u m r a l. Axı, nə olub?

K a m a l (*yavaşdan onun qulağına*). Nə olacaq? Ananı qulluqçu bilib, artıq-əskik danışmışam.

G ö v h ə r. Paltar yuyurdum, üst-başım bir gündə idi ki... (*Kamalı güclə oturdur*) Otur görək...

K a m a l. Xəcalətimdən başımı qaldırıb, üzünüzə baxa bilmirəm.

G ö v h ə r. Eybi yoxdur. Amma bir sözün xoşuma gəldi. Nə təhər dedin? Ailəsini sevməyən adamın sinəsindən ürək əvəzinə daş asılıb!

K a m a l. Birinci addımdan bu boyda səhv buraxdım. Gör sonrası nə olacaq?

G ö v h ə r. Sonrası yaxşı olacaq...

Q u m r a l. Bir kərəlik de ki, məni biabır eləmisən də...

G ö v h ə r. Heç bir biabırçılıq olmayıb, qızım! Uşaq mənə ürəyinin sözünü deyib.

K a m a l. Yox, ana, ürəyimin sözünü hələ indi deyəcəyəm.

Q u m r a l. Kamal, bəsdir!

G ö v h ə r. Uşağı utandırma, qoy sözünü desin.

Q u m r a l. Onda mən gedim, sonra... (*Kamalın qulağına*) Ağlına gələni danışmayasan, ha!.. (*Gedir*)

K a m a l. Sizdən üzr istəyirəm, ana!

G ö v h ə r. Təkcə üzr?! Ayrı sözün yoxdur?

K a m a l. Sizinlə danışmağa elə möhkəm hazırlaşmışdım ki... Hamısını yaddan çıxartdım...



G ö v h ə r. Heç nə danışmaq lazım deyil. Fikrini bayaq mənə dedin, o kifayət eləyər. Bir də görüm, ailəniz bu işə necə baxır? Atan, anan... Bəlkə onların xəbərləri yoxdur, özün öz başına gəlmisən?

K a m a l. Yox, atam da razıdır, anam da.

G ö v h ə r. Görməzə, bilməzə?

K a m a l. Keçən il Qumral bizim rayonda təcrübədə olanda görüblər, çox da xoşlayıblar, özləri də gələcəkdilər, ancaq məhsul yığımı başlarını qarışdırdı.

G ö v h ə r. Bəs sənin başın qarışıq deyil? Hələ bir işə bənd olmamısan?

K a m a l. Xeyr. Deyirəm işimiz Qumralla bir yerdə olsun. O, müəllimə, mən də aqronom.

G ö v h ə r. Gərək atası ilə danışaq... (*Kamal qorxu içərisində ayağa qalxır*) Qorxma! Bayaq sən dediyin qədər də pis deyil.

K a m a l. Ana, bəlkə siz?

G ö v h ə r (*onun sözünü kəsir*). Mənə qalsa, sözüm yoxdur. Atası ilə danışarıq. Bu saat sənə bir stəkan şirin çay gətirim. Adətdir, xeyir işi şirinliklə qarşılayarlar. (*Gedir*)

Bir azdan Q u m r a l içəri girir.

Q u m r a l. Hə, nə oldu? Anam yəqin inciyib, hə?

K a m a l. İnciməyib. Məni bağışladı. Hələ üstəlik, səni də mənə bağışladı.

Q u m r a l. Nə dedi?

K a m a l. Deyəsən, razıdır. Qalıb atan. Gözləyirəm gəlsin, onunla da danışam.

Q u m r a l. Atamla özün danışma, bildin? Bütün işləri korlayarsan. Niyə tələsirsən? Milisioner kimi nə başımızın üstünü kəsdirmisən?

K a m a l. Daha bıçaq sümüyə dirənib, bu gün məsələni həll eləməliyəm.

Q u m r a l. Bu gün yox, get, sonra!..

K a m a l. Hara gedirəm? İndi qayınanam mənə çay gətirəcək. (*Arxayın oturur*)

Q u m r a l. Hələ çay da içəcəksən?

K a m a l. İçəcəyəm. Bir az aclığım var, deyəcəyəm: ana, bufetdə nə varsa, götür gəl. Mən iş adamıyam. Yeməsəm, dayana bilmərəm.

Q u m r a l. Kamal, səni belə bilmirdim. Nə yaman qarınqulusan?

Gövhər çay gətirir.

G ö v h ə r. Bir stəkan şirin çay iç!

K a m a l. Çox sağ olun, ana! Mən çay içən deyiləm.

G ö v h ə r. Bəlkə acığın var?

K a m a l. Xeyr, xeyr...

Q u m r a l. Çox sağ ol...

G ö v h ə r. Qonağın əvəzinə sən niyə "sağ ol" deyirsən? Bir stəkan da gətirim, bir yerdə için. Yəqin uşaq tək utanır... (*Gedir*)

Qumral və Kamal bir-birinə baxıb, dinməz gülümsünürlər. X ə l i l içəri girir.

X ə l i l (*Qumrala*). Bacı qızı, salaməleyküm!

Q u m r a l. Xoş gəlmisən, ay dayı! (*Kamala*) Xəlil dayımdır. Tanış ol!

X ə l i l (*Kamala diqqətlə baxır*). Gözümə tanış gəlirsən. Artist deyilsən?

K a m a l. Xeyr.

X ə l i l. Qubadlıda klub müdiri olmamısan?

K a m a l. Xeyr, mən aqronomam.

X ə l i l. Belə de, aqronomsan. Qırx altıda Salyanda işləməmisən?

K a m a l. Xeyr, işləməmişəm.

X ə l i l. Əllinci ildə Şəkidə ipək üstündə məhkəməyə düşməmisən ki?

K a m a l. Xeyr.

Q u m r a l. Kamal institutu təzə bitirib, dayı!

X ə l i l. Yalan demə. Bəs mən səni harada görmüşəm? (*Oturur, çayı qabağına çəkir*) Hə, isti çaya, şirin çaya, canım qurban. (*İçməyə başlayır*)

G ö v h ə r əlində çay içəri girir.

G ö v h ə r. Ay Xəlil, xoş gəlmisən! Uşağın çayını niyə içirsən?

X ə l i l. Stəkanın üstündə kimin çayı olduğu yazılmamışdır. Əliqulu haradadır?

G ö v h ə r. Harda olacaq, idarədə. Bilmirəm nə olub, neçə aydır ki, dilxordur. Qaşqabağından qar yağır.

X ə l i l. Onun üzügülər vaxtı olub ki? Elə bil xəmirinə istiot qatıblar... Ha axtardım idarəsini tapmadım, şəhər yaman dəyişib...

G ö v h ə r. Neçə ildir gəzmədiyin rayon qalmayıb. Doğma yurdunayuvana gəlmisən ki, tanıyasan? Evin yox, eşiyin yox, adın da qalıb subay Xəlil. Bizim Kamalla tanış oldun?



X ə l i l. Tanış olmağına oldum, ancaq "bizim Kamal" sözünü başa düşmədim. Əliqulunun qohumudur, nədir?

G ö v h ə r. Yox, Kamal hələ indi bizimlə qohum olmaq istəyir.

X ə l i l. Hə, Gövhər, indi bildim ki, qocalmısan, ürəyin nəvə istəyir.

G ö v h ə r. Yaxşı, cavanları utandırma. (*Kamala*) Yaxın otur, bala, Xəlil dayınla bir yerdə çay iç. Mən Qumral üçün yenə gətirərəm. (*Gedir*)

X ə l i l. Gəlin ikiniz də yanımda oturun. Mən bir dünyagörmüş adamam. Kuryerdən tutmuş müdirə qədər bütün qulluqlarda olmuşam. Deyin görüm bir-birinizi istəyirsiniz, yoxsa elə-belə, əz bərayi xali nəbudən?

Q u m r a l. Axırını başa düşmədik.

X ə l i l. Əvvəlinə cavab verin.

K a m a l. İstəyirik...

X ə l i l. Qəti?

K a m a l. Qəti!

X ə l i l (*Qumrala*). Sən necə?

Qumral utanır, başı ilə istədiyini təsdiq edir.

X ə l i l. Hə, onda möhkəm dayanın. Yaxşı ailə qurun, möhkəm məhəbbət möhkəm ailənin əsasıdır. Su kimi duru olun, ancaq su kimi o yan-bu yana axan olmayın! Od kimi qızğın olun, ancaq tez sönməyin! Sazın simləri kimi həmişə saz olun, o vaxt ikiniz də bir hava çalarsınız. Ancaq tez kökdən düşməyin! (*Kamala*) Atan, anan razıdırlar?

K a m a l. Razıdırlar.

X ə l i l. Bu cür qızla evlənməyə mənim nənəm də razı olar. Bəs, Əliqulu necə, razılığını verib?

K a m a l. Hələ yox.

X ə l i l. Yox?

Q u m r a l. Atamın heç xəbəri yoxdur.

X ə l i l. Hə, onda bayaqdan danışdıqlarımızın hamısı bir qoz. Daha niyə deyirsiniz ki, Vartan sağdır?

Q u m r a l. Vartan kimdir?

X ə l i l. Dayan, sözümü kəsmə. Elə-belə əli ətəyindən uzun gəlmisən ki, Əliqulu əmi, qızını almaq istəyirəm? Ay-hay! Vallah, o bir mərdigiriz adamdır, düşər tərs damarına, sənə bir düdəmeyi-hindi gələr ki...

Q u m r a l. Dayı nə danışırsan? Heç o cür söz deyərlər?

X ə l i l. Sən kişilərin söhbətinə qarışma.

K a m a l (*qorxmuş halda ayağa qalxır*). Onda mən getsəm yaxşıdır.

X ə l i l. Budur da. Cavanların bu işinə yoxam! O saat qorxub geri çəkildi. İndi ki, cürət edib gəlmisən, möhkəm dayan! Mən adam sərrafıyam. Zərgər qızılı tanıyan kimi, mən də adamları tanıyıram. Səni görən kimi ürəyim qızındı, xoşuma gəldin. Mənim o böyük-kiçik tanımayan, ayağını ayağının üstünə aşırıb, papiros fısqırdan cavanlardan zəhləm gedir. Sən onlara oxşamırsan. De görüm, burada, şəhərdə qohum-əqrəbadan bir adamın var?

K a m a l. Əmioğlum var – Rövşən. Arvadı ilə yuxarıda, təzə evlərdə yaşayır.

X ə l i l. Bildim, bildim... Özlərini yaxşı yerə veriblər. Hə, iş bərkə düşəndə, onları da köməyə çağırarıq, amma, hələlik, qorxma! Mən ölməmişəm ki... Oradan-buradan söhbət salıb razılığını alaram. (*Qapının zəngi çalınır*) Bəlkə gələn Əliquludur. Siz gedin o biri otağa, mən burada işi bitirim.

Qumral ilə Kamal gedirlər. Xəlil qapını açır. S ə f ə r içəri girir, birbaş otağın ortasına gəlib, o yan-bu yana baxdıqdan sonra soruşur.

S ə f ə r. İcazə olar?

X ə l i l. Dünyada qəribə adamlar var. İçəri girəndən sonra icazə istəyirlər?

S ə f ə r. Bayırda dayanıb, icazəni necə istəyim? Radio vasitəsilə?

X ə l i l. Radio ilə "Segah" oxuyarlar, icazə istəməzlər. Sözünü de.

S ə f ə r. Əliqulu Baloğlanoviç evdədir?

X ə l i l. Kim?

S ə f ə r. Əliqulu Baloğlanoviç.

X ə l i l. Baloğlanoviçi tanımıram, amma Əliqulu evdə yoxdur.

S ə f ə r. Sən Xəlil deyilsən?

X ə l i l. Xəliləm...

S ə f ə r. Ola bilməz!

X ə l i l. Deyirəm Xəliləm də...

S ə f ə r. Ola bilməz, canım...

X ə l i l. İşə düşmədik?!.

S ə f ə r. Bəs hanı o qara qaşlar, qara saçlar? Bəs hanı qızların ürəyini dağlayan o ceyran gözlər? İndi əncir qurusuna oxşayır... Gəl, öpüşək.



X ə l i l. Ya Allah, xoş gəlmisən! (*Qucaqlaşıb öpüşürlər*) Öpüşməyinə öpüşdük. Amma, sən öl, tanımadım. Mal həkimi deyilsən?

S ə f ə r. Yox.

X ə l i l. Lənkəranda əmanət kassasında işləməmisən?

S ə f ə r. Yox, ay Xəlil, yox...

X ə l i l. Dayan-dayan. Səsin tanış gəlir. Astraxanbazarda kolxoz sədri deyildin?

S ə f ə r. O yan-bu yana əl-qol atma, ay Xəlil. Mən Səfərəm.

X ə l i l. Səfər? Hansı Səfər? Mən çox Səfər tanıyıram. Biri Qasımov Səfər Qarabağda ispalkom idi, sonra çıxarıb çayçı qoydular. O biri İsmayılov Səfər pambıq zavodunda işləyirdi, üçüncüsü...

S ə f ə r (*onun sözünü kəsir*). Dayan görüm. Mən Səfər Səfərovam. Səninlə bir məktəbdə oxumuşuq. Yadındadırmı? Zarafatca mənə Sıfır Sıfırov deyərdiniz.

X ə l i l. Əşi, ay Sıfır, bunu bayaqdan de də!.. Tanıdım, tanıdım. Ay səni xoş gördük! (*Təzədən qucaqlaşırlar*) Başını kim belə silib-süpürüb, təmizləyib.

S ə f ə r. Töküldü, ay Xəlil, payız xəzəli kimi töküldü.

X ə l i l. Neçə ildir səni görmürəm. Nə yaman dəyişmisən?

S ə f ə r. Amma mən səni görən kimi tanıdım. Nə vaxt gəlmisən? Nə əcəb gəlmisən? Harada işləyirsən?

X ə l i l. Təqaüdə çıxmışam. Ona görə də tamam köçüb gəldim. Bəs, necə? Otur danış görək, haradan gəlirsən, hara gedirsən?

S ə f ə r. Heç yerdən gəlmirəm, heç yerə getmirəm. Burada, Əliqulu Baloğlanoviçin yanında küllənirəm.

X ə l i l. Bəs, indi o gözünə döndüyüm Baloğlanoviçi tələsikdə neyləyirsən?

S ə f ə r. Səhər onu təcili çağırdılar. Hələ indiyə kimi gəlib çıxmayıb. Nigaranam.

X ə l i l. Hara çağırdılar?

S ə f ə r. Yuxarıya.

X ə l i l. Hə, başa düşdüm. O sıxışdırır, yoxsa, onu sıxışdırırlar?

S ə f ə r. Bilmirəm. Nigarançılığım da ondandır.

Qapının zəngi çalınır.

X ə l i l (*oyankı otağa üzünü tutub*). Gövhər, Qumral, gəlin qapını açın!



M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası

Gövhər ilə Qumral gəlirlər.

Qumral. Yəqin atamdır.

Gövhər. Tez aç!

Qumral qapını açır. Əliqulu içəri girir. Heç kimə baxmadan bikef otağın ortasında dayanır.

Əliqulu. Gövhər, şlyapamı götür başımdan. Yavaş, saçımı yoldun ki... Boğazımdan şarfı aç. Dayanın, dayanın, Xəlil, pəncərə açıqdırsa, bağla!

Xəlil. Pəncərə bağlıdır.

Əliqulu. Yanındakı kimdir?

Səfər. Mənəm, Əliqulu Baloğlanoviç, Səfərəm.

Əliqulu. Qapını ört, başımın ortasını soyuq vurar.

Səfər. Bu dəqiqə təşkil eləyərəm. (*Qapını örtür*) Tapşırdığınız kimi qapını bağladım, Əliqulu Baloğlanoviç!

Əliqulu. Hə, indi başlayın paltomu çıxartmağa.

Gövhər ilə Qumral onu soyundururlar.

Xəlil (*Səfərə*). Bəs, onu idarədə kim soyundurur?

Səfər. Katibəsi ilə mən.

Əliqulu. Yavaş, az qala, qolum çıxmışdı. Yaxşı, ayaqqabılarımı özüm çıxardaram.

Xəlil. Nə dedi?

Səfər. Deyir, ayaqqabılarımı özüm çıxardaram.

Xəlil. Zəhmətkeş adamdır.

Qumral. Ata, niyə rəngin qaçıb?

Səfər. Bir az fikirli görünürsünüz, Əliqulu Baloğlanoviç...

Əliqulu (*əsəbi halda*). Gövhər, get mənə bir papiros gətir.

Xəlil. Oho!.. Bəs tərgitmişdin?

Gövhər. Bir ildir çəkmirdi, ey... İndi təzədən başlayır.

Əliqulu. Gövhər, əsəb mərkəzinə təsir eləmə! Get papiros gətir!

Gövhər. Yaxşı, yaxşı, hirslənmə. Nə deyirəm ki? (*Çıxır*)

Xəlil. A kişi, nə olub belə hirslənirsən?

Əliqulu. Sən mənim daxili işlərimə qarışma, Xəlil!

Xəlil. Bir sözdür soruşdum, daha cəncəl demədim ki? (*O biri otağa gedir*)

Əliqulu (*Qumrala*). Nə qabağımda dikəlib durmusan? Paltonu, şlyapanı aparıb yerindən asa bilmirsən?



Qumral pərt halda çıxır. Gövhər papirosla qayıdır.

Gövhər. Yemək yeyəcəksən?

Əliqulu. Araq var?

Gövhər. Arağı neyləyirsən? Həmişə kəmşirin içərdin...

Əliqulu (*kobudcasına*). Həmişə çox şey eləyərdim, ondan sənə nə? Kəmşirin. Kəmşirin nə zəhrimardır, sən mənə acı araq ver, qoy ciyərimi yandırıb-yaxsın, tüstüsü təpəmdən çıxsın.

Gövhər. Allah, sən saxla!.. Bu gün nə olub, qan-qan deyirsən? (*Gedir*)

Səfər. Yuxarıya nə üçün çağırmışdılar, Əliqulu Baloğlanoviç?

Əliqulu. Köhnə məsələ yenə təzədən partlayıb. (*Böyük bir sükutdan sonra*) Məni işdən çıxardırlar.

Səfər (*təəccüblə*). Nə danışırsınız? Harada? Nə vaxt?

Əliqulu. Bu gün... Yuxarıda, nazirlikdə... Hər tərəfdən tökülüşdülər üstümə, qanadlarımı qırıb, saldılar yerə.

Səfər. Baho, nə bədbəxt hadisə!.. Nə bəd xəbər!.. Bəs, o kağız nə olacaq? Qol çəkilməmiş qaldı, Əliqulu Baloğlanoviç?

Əliqulu. Nə kağız?

Səfər. Hesab kağızı. Hər gün sizə demirdim?

Əliqulu. Yadımdan çıxıb.

Səfər. Ezamiyyətə gedəndə idarənin hesabına şey-şüy almışdım, bir o,... bir də pul... Neçə vaxtdır ilişib ayağımızda qalıb. Dediniz ki, saxla, bir çarə taparıq.

Əliqulu. Nə pis vaxtda arabanın dümbəsini vurduq yerə...

Səfər. Axı, bir deyin görək, sizi işdən çıxartmağa nə bəhanə gətirdilər?

Əliqulu. Sual-cavabdansa, mənə bir əlac tap, Səfər! Əlac!

Səfər. Ətraflı bilməsək, əlac tapmaq çətindir. Hirslənməyin, sakit danışın...

Əliqulu. Elə əvvəlcə söhbət sakit gedirdi. Sonra yavaş-yavaş sıxma-boğma başlandı. Axırda dərya elə təlatümə gəldi ki, bu boyda paroxodu batırdı.

Səfər. Dərya birdən-birə niyə coşdu axı? Neçə vaxtdır ki, sakit idi.

Əliqulu. O ağbaş, çeşməkli var ha... Muradov... Nazirliyə gələndən düşüb mənim üstümə. O vaxt da məsələni o qaldırmışdı, bu gün də ortada kəndirbazlıq eləyən o idi. Yanında da üç-dörd nəfər var

idi – komissiya üzvləri. Kollegiyaya məsələ hazırlayırlar. İşimi orada bitirəcəklər.

S ə f ə r. Ağbaş, çeşməkli? Nazlının dayısını deyirsiniz?

Ə l i q u l u. Nazlı kimdir?

S ə f ə r. İndi tanımayacaq ha!.. Bir göyçək arvad vardı ey... Nazirliyin plan şöbəsində işləyirdi.

Ə l i q u l u. Görməmişəm.

S ə f ə r. Ola bilməz.

Ə l i q u l u. Əşi, lobya əkmə də... Deyirəm, görməmişəm, görməmişəm.

S ə f ə r. Ay Əliqulu Baloğlanoviç! Neçə ay bundan qabaq, sizin məsələniz yuxarıda ilişəndə, özünüz demədiniz ki, ona bir məktub yaz, dayısı lazımlı adamdır?

Ə l i q u l u. Hə, onu deyirsən?.. Əşi, bu davleniyə məni birtəhər eləyib. Üzünü görməyinə görməmişəm, amma o vaxt sən bərk tərifləmişdin. Deməli, məktubu yazıb göndərmisən.

S ə f ə r. Əlbəttə! İmza da qoydum "Ə". Sonra elə bildim iş düzəlib, daha dalınca düşmədim...

Ə l i q u l u. Deyirəm axı. O, Muradov mənə elə suallar atırdı ki, idarənin lap içərisindən, göbəyindən xəbər verirdi.

S ə f ə r. Yəqin Nazlı danışıb.

Ə l i q u l u. Onun əri kimdir?

S ə f ə r. Kimin?

Ə l i q u l u (*hirsli halda*). Necə yəni kimin? Mənim.

S ə f ə r. Başa düşmürəm.

Ə l i q u l u. A kişi, Nazlıdan danışmırıq? Soruşuram əri kimdir?

S ə f ə r. Deyirlər bizim məktubdan sonra əri onu atıb.

Ə l i q u l u. Ola bilməz, canım. Güclü qələmin varmış, qoçaqsan. Tez hərəkət eləmək lazımdır.

S ə f ə r. Bu saat paltarlıq parça alıb, kəsdirərəm qapılarını.

Ə l i q u l u. Xırdaçılıq eləmə, Səfər!

S ə f ə r. Üstə də bir qızıl saat.

Ə l i q u l u. Saxla görək, saat-maat meydanı deyil... Belə vaxtlarda adama gərək ya həmyerli dayaq ola, ya da qohum.

S ə f ə r. Sizin rayondan burada bir zırpı adam yoxdur?

Ə l i q u l u. Vardı, yerlipərəstlik üstündə işdən çıxartdılar.

S ə f ə r. Bəs, qohum?



Ə l i q u l u. Yoxdur. O ağbaş, çeşməkli var ha... Adamın gərək o zorbalıqda qohumu olsun.

S ə f ə r. Necə olsun? O yaşda da deyilsiniz ki, qayınatası olasınız.

Ə l i q u l u. Mən onun qayınatası ola bilmərəm, o mənim qayınatam olsun...

S ə f ə r. Qızı yoxdur ki...

Ə l i q u l u. Bacısı qızı var. Bəs məktubu ona nə üçün yazmışdın? Başa düşdün?

S ə f ə r. Əliqulu Baloğlanoviç, axı siz evlisiniz.

Ə l i q u l u. Onun mətləbə heç dəxli yoxdur. Mən hər dəqiqə subay ola bilərəm. Arvad nə qədər istəsən var. Bu cür vəzifəni isə heç yerdə tapmaq olmaz.

S ə f ə r. ZAQS icazə verməz.

Ə l i q u l u. ZAQS. Nə ZAQS? Mən Gövhərə molla ilə kəbin kəsdirmişəm. O vaxt ZAQS dəb deyildi.

S ə f ə r. Hə, onda lap gözəl! Molla dini mövhumatdır. Siz hökumətin nəzərində heç evli deyilsiniz.

Ə l i q u l u. Əşi, bu tərəfdən nigarançılığım yoxdur. Ancaq o? Məni düşündürən odur... Mənə gələrmi?

S ə f ə r. Mələyə-mələyə.

Ə l i q u l u. Yox, a?..

S ə f ə r. Əliqulu Baloğlanoviçin canı üçün! Yaşınızın keçməsinə nə baxırsınız? Sifətinizə yüngül bir əl gəzdirsəniz, bəsdir. Mən axırıncı dəfə evlənəndə remontdan elə çıxmışdım ki, neçə gün özüm-özümü tanımadım. Gələr, niyə gəlmir...

Ə l i q u l u. Gələr, olar həm ziyarət, həm ticarət.

S ə f ə r. Onun dayısı olar sizin də dayınız. Bu saat sizə elə bir dayı lazımdır.

Ə l i q u l u. Onda məsələ də gedib kollegiyaya çıxmaz!

S ə f ə r. Əlbəttə, çıxmaz!

Ə l i q u l u. Səfər, bu söhbət aramızda. Başa düşdün?!

S ə f ə r. Qəbir kimi dinməz, dəmir kimi möhkəməm.

Ə l i q u l u. Di tez ol!..

S ə f ə r. Göz açıb yumunca işi təşkil eləyəcəyəm.

Ə l i q u l u. Yaxşı, iclas qurtardı. Yeri, əlli-ayaqlı ol!

S ə f ə r. Sizi nə vaxtlar narahat etmək olar?

Ə l i q u l u. Hər vaxt... Gecə, gündüz, səhər, axşam. Çörək yeyirəmsə, yarımçıq qoyaram... Yuxulayıramsa, dik atılaram... Çimirəmsə,

sabunlu-sabunlu qabağına çıxaram. Səndən gizlin mənim heç bir sirrim yoxdur, Səfər! Diyirlənib-diyirlənib, lap axırıncı pillədə dayanmışam. Oradan da məni qopardıb salmaq istəyirlər? Yox!.. Mən müdir olmaq, sədr olmaq, rəhbər olmaq üçün yaranmışam. Öləndə də gərək əlim telefon dəstəyində olsun. Vəzifə... Vəzifə...

S ə f ə r. Vəzifə... Katibə... Saysız-hesabsız telefon aparatları... Cürbəcür zənglər... Kabinet...

Ə l i q u l u. Kabinet. Kabinet gözəl şeydir, Səfər! Ancaq gərək isti olsun, rahat olsun... Pürrəng çay qabağında, zənglər də əlinin altında. Bir barmağının hərəkəti ilə bütün idarə qabağında rəqs eləməyə hazırdır. Sən ayağa durursan, hamı ayağa durur; sən gülürsən, hamı gülür; sən acıqlısan, qorxudan barmaqlarının ucunda gəzirlər. Səfər, mən qızımı da böyük vəzifəli adama ərə verəcəyəm. Qoy, o mənə dayaq olsun, mən də ona... Qoy qapımızda maşınlar cüt-cüt dayansın. İnsan yeməyə, yatmağa adət eləyən kimi, mən də bu cür həyata adət eləmişəm. Məni yerimdən qopartmaq öldürmək deməkdir. Əgər dostunun ölməyini istəmirsənsə, hərəkət elə, Səfər!

S ə f ə r. Bu dəqiqədən işə başlayıram. Sağ olun! (*Gedir*)

G ö v h ə r ilə X ə l i l gəlirlər. Qumral və Kamal da onlarla bir yerdə gəlmək istəyirlər, Xəlil qoymur.

X ə l i l (*qapıdan yavaşdan*). Siz qayıdın, razı olan kimi xəbər verərik, ikiniz də gələrsiniz. (*Onları geri qaytarır*)

G ö v h ə r (*əlindəki yemək podnosunu stolun üstünə qoyur*). Quluş, qadan alım, sənə bir söz desək, acığın tutmaz ki?

Ə l i q u l u. Sözə baxır da.

G ö v h ə r. Gəl otur, yemək ye, yorulmusan...

X ə l i l. Canına bax, özünü əldən salma, üzülərsən.

G ö v h ə r. Əsəbiləşmə, bütün günü hirslənirsən. Nə olub sənə?

Ə l i q u l u. Duz ver!

G ö v h ə r. Duz budur, burada. Sənə bir söz desək, acığın tutmaz ki?

Ə l i q u l u. Dedim, sözə baxır da...

X ə l i l. Ürəkaçan sözdür.

G ö v h ə r. Bir oğlan var, səni onunla tanış eləmək istəyirik.

X ə l i l. Aqronomdur.

Ə l i q u l u. Bizim ştatımızda aqronom yeri yoxdur.

X ə l i l. Qulluğa girmək istəmir ey...

G ö v h ə r. Sənlə tanış olmaq istəyir.



Ə l i q u l u. Qız deyiləm ki, mənimlə tanış olur?

X ə l i l. Qızla tanış olub. İndi də sənlə görüşmək istəyir.

Ə l i q u l u. Necə? Mənim qızımla tanış olub?

G ö v h ə r. Yox ey... Elə deyil...

Ə l i q u l u. Gövhər, bilirsən ki, mənim hirsim tutanda başımda ildırım çaxır.

G ö v h ə r. Allah, sən saxla!

X ə l i l. Ay Əliqulu, acığın niyə tutur? Maşallah, qızın ərə getməli qızdır da...

Ə l i q u l u. Bilirsən nə var, Xəlil! Mənim evim kolxoz bazarı deyil, sən də burada qarpız satmırsan...

G ö v h ə r. Ayıbdır, Quluş, elə sözlər demə.

X ə l i l. Dedim mən qarışmayım, bu Əliqulu cəncəl adamdır...

Ə l i q u l u. Mənə bax, Xəlil! Neçə illərdi gözə görünmürdün, indi nə eşidib gəlmisən? Yoxsa Əliqulunu ölmüş bilirsən? Onu bil ki, mənim qızımla tanış olmaq üçün əl uzadanın əlini kəsərəm, mənim evimə ayaq basanın ayaqlarını qıraram.

G ö v h ə r. Xoşhaxoşluqla söz danışırıq, niyə çığırırsan?

Ə l i q u l u. Öz işimdir, istərəm çığıraram.

G ö v h ə r. Yaxşı, özün bil. Qoy qızın qarıyıb evdə qalsın.

Ə l i q u l u. Qalsın, razıyam, razıyam!

Q u m r a l K a m a l ı çəkib, içəri gətirir.

Q u m r a l. Razıdır, gəl...

Gövhər, Xəlil onları qaytarmaq istəyirlər, ancaq gecdir. Əliqulu Kamalı görmüşdür.

Ə l i q u l u (*təəccüblə*). Bu oğlan kimdir?

Q u m r a l. Ata, bu oğlan Kamaldır.

Ə l i q u l u. Kamal kimdir? Dayan, dayan görüm.

G ö v h ə r (*Qumrala*). Biz hələ sözümüzü qurtarmamışdıq.

X ə l i l. Çiydir, hələ bişməyib.

Q u m r a l. Ata!

Ə l i q u l u. Saxla! Məni başa salın görüm bu Kamal kimdir? Gözümə şübhəli görünür.

K a m a l. Şübhəli bir şey yoxdur. İcazə verin kim olduğumu özüm deyim.

Q u m r a l. Kamal, vaxtı deyil.

K a m a l (*Qumrala*). Sən toxta, gör nə siyasətlə danışacağam. (*Əliquluya*) Utansam da, gərək sözün düzünü deyim. Mən sizin evinizə ən bahalı, ən qiymətli cavahirat üçün gəlmişəm.

Ə l i q u l u. Obe-xe-esdən?

K a m a l. Xeyr, Əliqulu əmi.

Ə l i q u l u. Əmi-zad deyib, ayağımın altına xalı sərmə. Nazirlikdən göndəriblər?

K a m a l. Heç kəs göndərməyib, özüm gəlmişəm. Dediyim cavahirat sizin qızınızdır.

Ə l i q u l u. Valı dəyişdirdi, hərifdir. (*Kamala*) Hə, mənim qızım evdə nə var, nə yox hamısını sənə danışıb?

K a m a l. Bəli, danışıb. Biz bir-birimizi...

Ə l i q u l u (*onun sözünü kəsir*). Baş-ayaq vurma! De görüm, səni bura kim göndərib? Mənim evimdə nə axtarırsan? Sənə bir ləzgi-həngi gələrəm ki, Əliqulu adı eşidəndə tüklərin başında vız dayanar!..

X ə l i l. Yaxşı, yaxşı. Belə iş üstündə adam öldürən hələ görməmişəm.

Ə l i q u l u. Xəlil, sən mənim daxili işlərimə qarışma. (*Kamala*) Çıx buradan!

G ö v h ə r. A kişi, səbrini dər! Sakit ol!

K a m a l. Yaxşı, mən gedirəm. Qəm yemə, Qumral, eybi yoxdur. Biz bu evə ayrı qapıdan gələrik.

Ə l i q u l u. Buraya ayaq basanın ayağını qıraram. Qumral, sənin-lə söhbətim sonraya qalsın. Aç qapını, rədd olub getsin. Gövhər, tut qolumdan, yoxsa, qorxuram əlimdən xata çıxa.

G ö v h ə r. Bəri gəl, görüm, doğrudan da, xata çıxardarsan...

Ə l i q u l u. Gövhər, yıxdın mənim evimi!

Q u m r a l. Bağışla, Kamal can, mən axı sənə dedim də.

X ə l i l. Dayan, getmə, oğul, sözüm var.

Ə l i q u l u. Yenə əsəb mərkəzimə təsir eləyirsən, Xəlil!

X ə l i l. Sən də mənim mərkəzimə təsir eləyirsən, daha ağ elədin!

Ə l i q u l u. Xəlil, Əliqulu ölməyib ki, onun evində ağalıq eləyirsən...

X ə l i l. Xəlil də ölməyib. Mən işə girişsəm, qabağımda Əliqulu-Məliqulu davam gətirməz.

P ə r d ə



## İKİNCİ PƏRDƏ

### İKİNCİ ŞƏKİL

Y a s ə m ə n əlində bir dəstə çiçək pərdə qabağına çıxır.

Y a s ə m ə n. Çiçəklər hazır. Bu saat Nazlıgilə gedirəm. Həm anadan olan günü münasibətilə ona gözaydınlığı verəcəyəm, həm də öyrənəcəyəm, görüm, ərindən nə üçün ayrılıb? Ailə qurmaq çətindir, dağıtmaq asan. Mənim indi yazmaq istədiyim əsər ailə və məişət mövzusundadır. Bəlkə burada, Nazlıgildə özümə maraqlı material tapdım. Gördüklərimi sizə də göstərəcəyəm. Gəlin, bir yerdə düşünək, bir yerdə həyəcanlanaq və bir yerdə gülək. Yaxşımı? Gəlin!

Pərdə açılır. Humayın təzə evlərdən birindəki otağı. Ev zövqlə bəzənmişdir. Y a s ə m ə n pərdə qabağından bu otağa daxil olur. Səhnədə heç kəs yoxdur.

Y a s ə m ə n. Ay bu evin yiyəsi!

N a z l ı üst-başı unlu səhnəyə gəlir.

N a z l ı. Kimdir ev yiyəsini çağıran? Yasəmən?

Y a s ə m ə n. Əllərini yuxarı qaldır! Tərpənmə! Yoxsa üst-başımı un eləyərsən. (*Onu öpür*) Bax, buna deyərlər birtərəfli məhəbbət.

N a z l ı. Bu saat əlimi yuyub qayıdaram. (*Gedir*)

H u m a y gəlir.

H u m a y. Yasəmən, xoş gəlmisən!

Y a s ə m ə n. Humay, gözün aydın, bu gün bacın bir yaş da böyüdü.

H u m a y. Nə olsun, ağlı böyümür ki... (*Yavaşdan*) Ha deyirəm barış, qayıt ev-eşiyinə... sözə baxmır.

Y a s ə m ə n. Bəs o, Rövşən necə?

H u m a y. Özünü öldürür, gözünün yaşını sel kimi axıdır. Amma mənim bacım tərsin biri tərsdir. (*Nazlı gəlir. Humay tez sözünü dəyişir*) Ərin necədir, a Yasəmən?

Y a s ə m ə n. Bilmirəm.

N a z l ı. Necə bilmirəm?

H u m a y. Yoxsa, sən də ayrılmısan?

Y a s ə m ə n. Yox, niyə ayrılıram? Məsələ ondadır ki, ilin altı ayını mən ezamiyyətdə oluram, altı ayını o. Bir yerdə olmaq bizim üçün toy-bayramdır.

H u m a y. Həmişə toy-bayram içində olasınız. Ərinin qədrini bil, Yasəmən! Dul olub, hər gün plov yeməkdənsə, pendir-çörək ye, ərinlə bir yerdə ye!..

N a z l ı. Humay, söz atma!..

H u m a y. Yaxşı, yaxşı, mən bir söz demədim ki... (*Gedir*)

Y a s ə m ə n. Nazlı, Humay neyləyir, harada işləyir?

N a z l ı. Yenə köhnə yerindədir, bağça müdiridir.

Y a s ə m ə n. Ərə getməyib?

N a z l ı. Yox, ay Yasəmən, yazığın baxtı açılmır ki, açılmır. Ögey bacım olduğuna baxma, onu çox istəyirəm.

Y a s ə m ə n. Bəs özün necəsən?

N a z l ı. Gördüyün kimi.

Y a s ə m ə n. Gördüyüm odur ki, maşallah günü-gündən çiçək kimi açılırsan.

N a z l ı. Əlbəttə, hirsləndirən yox, əsəblərimlə oynayan yox.

Y a s ə m ə n. Barışmaq istəmirsən?

N a z l ı. Lap gözüm oynayır.

Y a s ə m ə n. Bu gün gəlməyəcək?

N a z l ı. Hünəri var, ayağını bassın. Dolu bir evi onun üçün qoyub gəlmişəm, bəsidir...

Y a s ə m ə n. Düzünü de, heç yadına da düşmür?

N a z l ı. Nə məni sorğu-suala tutmusan? Yoxsa, təzə əsərin üçün mövzu axtarırsan?

Y a s ə m ə n. Yox, səndən mənə mövzu olmaz, götürüm yazım ki, bir-birilərini çılğın məhəbbətlə sevirdilər, evləndilər, sonra kiçik bir şeyi bəhanə edib ayrıldılar... Mən belə əsər yazsam, tamaşaçılar deyər ki, uydurmadır. Həyatda bu cür olmur.

N a z l ı. O cür biabırçılığa sən "kiçik bir şey" deyirsən?

Y a s ə m ə n. Şişirtmə! Nə biabırçılıq? Qısqanır, deməli, sevir...

N a z l ı. Elə bu cür yazırsınız ki, yazdıqlarınıza da heç kəs inanmır da... Qısqanclığın sevgi ilə heç bir əlaqəsi yoxdur! Qısqanclıq xüsusi mülkiyyətin qalığıdır. Qısqanclıq fikrin, düşüncənin yoxsulluğudur, şüurun korluğudur. Qısqanclıq...

Y a s ə m ə n (*onun sözünü kəsir*). De, de, təsbeh kimi düz birbirinin dalına! Fəlsəfə danışmağın nə mənası? Gözəl arvadı əri qısqanar da.

N a z l ı. Bir balaca qısqanmaq olar, sözüm yoxdur, məzə üçün. Yoxsa Rövşən kimi dəlilik eləmək?! Mənə bir məktub gəlmişdi, nə



bilim hansı axmaq yazmışdı? Belə gözəlsən, belə qəşəngsən... İmza da qoymuşdu: "Ə". Özündən çıxmadı? İdarədə Əhməd adlı bir oğlan var idi, düşdü onun üstünə. Xəcalətdən ayrı bir yerdə işə girdim. Orada da müdirin adı Əbdül imiş, dedi: yəqin qabaqcadan sözləşmişdiniz... Qərəz, məni addım-addım təqib eləyirdi: su içirdim, su satanla savaşırdı ki, niyə mənim arvadımın üzünə baxdın? Paltar tikdirirdim, dərzini hədələyirdi. Hətta, cansız şeylərə, şkafa, divara, otağa da məni qısqanırdı. Uf, nə canım qurtardı!

Y a s ə m ə n (*pəncərədən küçəyə baxır*). Səhv eləyirsən, heç canın qurtarmayıb. Gəl, bax, gör küçədə dayanıb, gözlərini necə pəncərəyə zilləyib!

N a z l ı. Hanı? (*Pəncərədən baxır*) Dəlidir də.

Y a s ə m ə n. Bu tərəfə keçdi, yəqin sənin yanına gəlir.

N a z l ı. Nahaq zəhmət çəkməsin, bizimki qurtarıb... (*Ora-bura gəzinir*) Qonaqlar indi gələcək, mən heç paltarımı da dəyişməmişəm.

Y a s ə m ə n. Hələ bundan da yaxşı paltar geymək istəyirsən? Yazıq Rövşənin ağlı başından çıxar ki... (*Qapı döyülür*) Nə tez gəldi?

N a z l ı. Yasəmən, xahiş eləyirəm, denən evdə yoxdur, qapıdanca yola sal, getsin.

Y a s ə m ə n. Romanlarda belə yazırlar: kişi yalvarır, qadın isə hələlik naz eləyir, öz dediyindən dönmək istəmir... (*Qapı yenə döyülür*) Gəldim!.. (*Nazlı cəld o biri otağa gedir, Yasəmən qapını açır*) Bağışlayın, Nazlı dedi ki, evdə yoxdur.

S ə a d ə t içəri girir.

S ə a d ə t. Tutaq ki, özü evdə yoxdur, evi ki, yerindədir.

Y a s ə m ə n. Səadət!

S ə a d ə t. Yasəmən! Bütün yazıçılara, şairlərə eşq olsun, içində də sənə!

Y a s ə m ə n. Bütün müəllimlərə eşq olsun, içində də sənə!

S ə a d ə t. Nazlıya nə olub ki, belə gündə "evdə yoxam" – deyir?

Y a s ə m ə n. Çaşıb ona "eşq olsun" deməyəsən ha!..

S ə a d ə t. Niyə?

Y a s ə m ə n. Çünki, Nazlı bu saat eşqdən qaçıb gizlənir.

S ə a d ə t. Eşqdən gizlənən qadın mən birinci dəfədir eşidirəm. Getmişdim onlara, dedilər, burada qalır. Bütün şəhəri ayaqdan salmışam. (*Oturmaq istəyir*)

Y a s ə m ə n. Oturma, dayan, icazə alım, sonra. (*Qapını açıb, o biri otağa tərəf*) Qadındır, deyim evdəsən?

N a z l ı gəlir. Səadəti görüb sevincək çığırır.

N a z l ı. Səadət! Bu cür qadınların yeri gözümün üstündədir.

Y a s ə m ə n. Çətin onu göz üstündə saxlamaq olar. Görmürsən nə boyda olub?

N a z l ı. Doğrudan, ay Səadət, maşallah, nə yaman kökəlmisən?

Y a s ə m ə n. Bir ildir görükmürsən, haradasan, ay qız?

S ə a d ə t. Soruşmayın, elə çətin işdəyəm ki...

N a z l ı. Müəllimlik nə çətin işdir?..

S ə a d ə t. Müəllim deyiləm ki. Neçə vaxtdır məni maarif şöbəsinin müdiri təyin ediblər.

Y a s ə m ə n. Ura!.. Bütün müdirlərə eşq olsun, içində də sənə! Konfransa gəlmisən?

S ə a d ə t. Yox, internat-məktəblərə paltar sifariş eləmişik, tərs alıblar. Onunçün gəlmişəm. Bir də ki, bizim rayona müəllimlər təyin eləyiblər. Onlarla tanış olmalıyam.

Y a s ə m ə n. Bura bax, Səadət, kabinetin bəzəklidirmi?!

N a z l ı. Sözünə baxırlar?

Y a s ə m ə n. Katibən var, yoxsa, katibin?

N a z l ı. Neçə telefonun var?

S ə a d ə t. Düşdüm sual yağışına ki... Bilirsiniz nə var?! Mən müdir olduğum üçün cavab verməyə adət eləməmişəm. Həmişə özüm soruşuram. Qulaq asın, birinci sual: Yasəmən, de görüm, ərin necədir?

Y a s ə m ə n. Bilmirəm. Evlənəndən bu günə qədər ezamiyyətdədir. Onun necə olduğunu məndən yox, rayispolkomlardan soruşun!..

S ə a d ə t. Aydındır. İkinci sual: Nazlı, de görüm, Rövşən hanı?

Y a s ə m ə n. Güclü sualdır.

N a z l ı. Rövşənin yerini məndən niyə soruşursan?

S ə a d ə t. Bəs kimdən soruşum?

N a z l ı. Adı "Ə" hərfilə başlanan kimə rast gəldin, kölgəsinə bax, Rövşəni görcəksən.

S ə a d ə t. Heç nə başa düşə bilmirəm.

Y a s ə m ə n. Mən bu saat səni başa salım.

Qapı döyülür.

N a z l ı. Sus, dayan, yəqin odur.



S ə a d ə t. O kimdir?

N a z l ı. Rövşən. Yasəmən, yadından çıxartma ki, mən evdə yoxam!

Y a s ə m ə n. Güclə içəri girmək istəsə, mən neyləyim?

N a z l ı. Qoyma.

S ə a d ə t. Bu sözlər Rövşən haqqındadır? Məəttəl qalmışam.

N a z l ı. Sonra səni başa salarıq. (*Cəld səhnədən çıxır*)

Qapı yenə döyülür.

Y a s ə m ə n. Kimdir, qapını döyən? Səbrin olsun, gəlirəm. (*Qapını açır, bərkdən*) Nazlı evdə yoxdur, olmayacaq.

A z a d içəri girir.

A z a d. Qonağı əcəb təntənə ilə qarşılayırsınız.

Y a s ə m ə n. Azad! Nazlı, Azaddır, gəl.

N a z l ı (*qayıdır*). Azaddır? Xoş gəlib, səfa gətirib.

Y a s ə m ə n. Ancaq xarici görkəmin yaman dəyişib, baxmaq olmur, adamın gözü qamaşır.

N a z l ı. Kostyuma bax, şlyapaya!..

Y a s ə m ə n. Bığlara bax!.. Yəqin, Azad, sən böyük vəzifədəsən?

A z a d. İcazə verin, özümü təqdim eləyim. Yeddi nömrəli sovxozun direktoru Azad. Yasəmən və Nazlı xanımlar! İcazə verin əlinizi sıxım. (*Onlarla görüşür*)

Y a s ə m ə n. Bəs Səadətlə niyə görüşmürsən?

A z a d. Səadət hansıdır? Bu göyçək qız?

N a z l ı. Azad, zarafat yeri deyil.

Y a s ə m ə n. Get, görüş, inciyər. Maarif müdiridir. Sən müdir, o müdir, sizinki yaxşı tutar.

A z a d. Hərçənd ki, tanımıram... Xanım, icazə verin sizinlə də görüşüm.

S ə a d ə t. Mənim adım Xanım deyil, Səadətdir.

A z a d. Ay sağ ol, gözəl adınız var!

S ə a d ə t. Olanı budur.

A z a d. İcazə verin, əlinizi sıxım və ömrümün axırına kimi öz ovcumda həbs eləyib saxlayım.

N a z l ı. Bu olmadı. Onda gərək ikiniz də ömrünüzün axırına kimi bülleten alasınız.

Y a s ə m ə n. Ya da gərək ikiniz də təqaüdə çıxasınız.

A z a d. Qoy xəbər verim, yoxsa, sorğu-sualla yaxamızı qurtara bilməyəcəyik.

S ə a d ə t. Ancaq, əlini cibindən çıxart.

A z a d. Yoldaşlar, sizə onu deməliyəm ki...

Y a s ə m ə n (*onun sözünü kəsir*). Başlanğıc çox təntənəli oldu.

A z a d. Qulaq as, axırı bundan da təntənəli olacaq. Sizə onu deməliyəm ki...

S ə a d ə t. Papirosu qoy bir yana.

A z a d. Bəli, sizə onu deməliyəm ki, altı aydan artıqdır ki, Səadət mənim familiyamı daşıyır.

N a z l ı. Necə?

Y a s ə m ə n. Nə?

N a z l ı. Mən başa düşmürəm.

Y a s ə m ə n. Yəqin evləniblər də...

N a z l ı. Aha, evləniblər... Bəs, bizə niyə xəbər verməmisiniz?

Y a s ə m ə n. Bizi toyunuza layiq görmədiniz?

S ə a d ə t. Təqsir, bax, bundadır. (*Azadı göstərir*) Qoymadı ki, əməlli-başlı toy eləyək, yoldaşları çağıraq.

A z a d. Bacılar, inciməyin. Öz toyumuza çağırmadıqsa, oğlumuzun toyunda lap başda oturacaqsınız.

S ə a d ə t. Azad, ətimi tökmə.

N a z l ı. İki müdir bir-birilə evlənib. Yəqin toyunuz iclasda olub hə?

A z a d. Məsələ nə toydadır, nə də toyun harada olmağında. Məsələ məhəbbətdədir. Arada məhəbbət olandan sonra ailədə hər gün toybayramdır. Bəziləri var ki, evlənəndə üç gün, üç gecə zurna çaldırırlar, amma bir ildən sonra evlərində elə zurna qopur ki, məhkəmələr həll eləyib, qurtara bilmir. Bəli, yoldaşlar, bizim – Səadət yoldaşla özümü deyirəm – gözümüz bir görür, qulağımız bir eşidir. Hətta, ürəyimiz də bir döyünür.

S ə a d ə t. Azad, reqlament!

A z a d. Hələ vaxtım var, qoy danışım.

S ə a d ə t. Otur görək, macal ver, başqaları da söz desin.

A z a d. Şəxsən mən qurtardım. Söz verilir Nazlı xanıma.

N a z l ı. Şəxsən mən söz istəməmişəm.

S ə a d ə t. Neçə gündür ki, iclas eləməyib, kişi darıxıb ey...



A z a d. Bu cür şəhərdə də adam darıxar? Gəzirik, tamaşa eləyirik, uşaq kimi sevinirik...

S ə a d ə t. Adam baxdıqca baxmaq istəyir.

Y a s ə m ə n. Görürsünüzmü, elə bil, ildə bir əsr irəli gedirik. Çılpaq küçələrə bu qədər yaşıl paltarı kim geyindirdi? Bulvara, bağçalara bu qədər gül-çiçəyi kim səpdi? Bu təzə evlər, geniş prospektlər haradan meydana çıxdı? Yadınızdadırmı, biz oxuyanda bunların heç izi-tozu da yox idi. Kim elədi?

A z a d. Biz eləmişik, biz!

S ə a d ə t. Özünü qatma, sənin xəbərin yoxdur.

Y a s ə m ə n. Azad düz deyir, biz eləmişik. Bizim kimi başında atəş, ürəyində məhəbbət olan adamlar eləyib.

H u m a y gəlir.

H u m a y. Bıy, nə əziz qonaqlarımız gəlib? Xoş gəlmisiniz!

N a z l ı. Təbrik elə, evləniblər ey!..

H u m a y. Doğrudan? Təbrik edirəm, təbrik edirəm! Quru təbrikdən nə çıxar, tez olun süfrə açın!

N a z l ı. Düz deyirsən, bacım, bunlar ki, toyu gizlin eləyiblər, gərək bu saat elə şənlik məclisi yaradaq ki, əvəzi çıxsın. Süfrə açaq, badə qaldıraq, sağlıq deyək. Qızlar çirməyin qollarınızı!

A z a d. Bəs, mən? Səadət evdə qayğanağa duz da tökəndə mənimlə məsləhətləşir.

Humay çıxır. Qapı döyülür, heç kəs eşitmir. K a m a l yavaş-yavaş içəri girir.

K a m a l (*öz-özünə*). Deyəsən, qonaqlığa düşmüşəm.

Y a s ə m ə n (*Kamalı görür, Nazlıya*). Bu kimdir?

N a z l ı. Kimi deyirsən? Hə, bu oğlanı. Kamaldır da...

Y a s ə m ə n. Təzə-təzə tanışların çıxır.

N a z l ı (*məzəmmətlə*). Yasəmən! (*Kamalla görüşür*) Xoş gördük, Kamal.

K a m a l. Getmişdim evinizə, qapı bağlı idi. Dedim, yəqin burada olarsınız.

N a z l ı. Çoxdan burada yaşayıram. O evə heç getmirəm.

Y a s ə m ə n. Məncə qonağı birinci növbədə tanış eləyərlər.

N a z l ı. Buyurun, tanış olun!

A z a d. İkinci növbədə oturmaq təklif eləyərlər.

N a z l ı. Buyurun, oturun!

S ə a d ə t. Üçüncü növbədə yemək təklif eləyərlər...

N a z l ı. Buyurun, yeyin!

K a m a l. Siz məni utandırırsınız. Mən qonaq deyiləm, elə ev yiyəsi kimi bir şeyəm.

Y a s ə m ə n. Budur ey... konflikt başlandı...

H u m a y. Kamal, xoş gəlmisən. Bəs, Rövşəni niyə özünlə gətirməmisən?

K a m a l. Rövşəni mən niyə gətirirəm? Özü öz ailəsinə gələ bilmir?

H u m a y. Ailə hanı? Yuva dağıldı, ay Kamal, quşların hərəsi bir tərəfə uçdu.

N a z l ı. Humay, yeri deyil!

H u m a y. Mən rəmz ilə danışıram da...

K a m a l. Mən də deyirəm niyə o evdə heç kəsi tapmadım. Deməli, yuva dağıldı, quşların hərəsi bir tərəfə uçdu? Onda icazə verin, sizi narahat eləməyim.

H u m a y. Hara gedirsən? Otur, biz sənə əmin oğluna görə hörmət eləmirdik ki?

N a z l ı. Səni öz qardaşım qədər istəyirəm.

H u m a y (*Kamalı güclə əyləşdirir*). Otur, bu saat sənə çay gətirim. (*Gedir*)

Qonaqlar otururlar. Birdən R ö v ş ə n qucağında bir dəstə gül, xəzri kimi otağa soxulur, hamı ayağa qalxır.

R ö v ş ə n. Bura bir kişi gəldi, kimdir o?

A z a d. Məni deyirsən?

R ö v ş ə n. Sən yox. Azad, tanımadığım bir adam idi.

K a m a l. Bəlkə məni deyir?

R ö v ş ə n. Hə... (*Yaxasından yapışır*) Sənin bu evdə nə işin var?

K a m a l. Əmioğlu! Tanımadın məni?

R ö v ş ə n (*birdən tanıyıb, yaxasını buraxır*). Kamal, sənsən? Bir idarə müdiri vardı, səni lap ona oxşatmışdım. Dərdimdən gözüm dünyanı görmür, dostla düşməni bir-birindən ayıra bilmirəm. (*Gül dəstəsini Nazlıya tərəf uzadır*) Xahiş eləyirəm bu gülləri qəbul edəsiniz. (*Kamala*) Nə vaxt gəlmisən? Burada nə edirsən?

K a m a l. Səni axtara-axtara gəlib buraya çıxmışam.



R ö v ş ə n. Məni buradan didərgin salanı didərgin düşsün! (*Ətrafdakılara*) Heç bir əl uzanmır ki... Yasəmən, salam, bunları suya qoy, solmasın.

Y a s ə m ə n. Mənə gətirmisən?

R ö v ş ə n. Gətirmişəm də... Kimin bayramıdır, götürsün.

N a z l ı (*hirsli*). Geri qaytar, Yasəmən, geri qaytar. (*İstəyir Yasəmənin əlindən gül dəstəsini alsın*)

Y a s ə m ə n (*vermir*). Dayan, əl vurma! Ortada gül olandan sonra ikiniz də "cəh-cəh" vuracaqsınız. (*Gülü güldana qoyur*)

S ə a d ə t. Rövşən, salam, bizdən də küsmüsən?

R ö v ş ə n. Salam, Səadət, mən heç kəsdən küsməmişəm, məndən küsüblər.

K a m a l. Rövşən, düzü, heç xəbərim yox idi.

R ö v ş ə n. Yaxşı ki, buradasan, əmioğlu, soruş gör, əgər, artığamsa, gedə bilərəm.

K a m a l. Nazlı xanım, Rövşən deyir ki... Nə dediyini özünüz eşitdiniz də...

N a z l ı. Kamal, əmioğluna de ki, mənim onunla haqq-hesabım qurtarıb. Dəftərxana bağlanıb.

R ö v ş ə n. Əmioğlu, ona de ki, dəftərxana bağlansa da, yenə də onun xidmətində hazır dayanmışam. Xüsusi bunun üçün işdən bir aylıq məzuniyyətə çıxmışam. Əgər lazımdırsa, gedib o məktubu yazan adamın özünü tapıb gətirim, kefləri açılsın. Adını ki, bilirəm, ya Əhməd olar, ya Əli, ya da ki, Əzim...

N a z l ı. Kamal, əmioğluna de ki, mən heç kəslə maraqlanmıram. Ürəyi sındırandan sonra bir dəstə gül ilə yamamaq mümkün deyil.

R ö v ş ə n. Əmioğlu, ona de ki...

K a m a l. Əmioğlu, söz aparıb-gətirməkdən yoruldum, üzünü çevir o yana, ürəyində nə söz varsa, özün de!

Y a s ə m ə n. O poçt şöbəsi bağlandı, keçin bizim tərəfə...

A z a d. Ərlə-arvadın küsməyi nə gülünc olurmuş?

S ə a d ə t. Ömründə məndən küsməyəsən ha!

R ö v ş ə n. Bu şən məclisi pozmaq fikrində deyiləm. Gülləri verdim, gedə bilərəm. Mən bu gülləri özüm toplamışam, arasına bir dənə də alaq otu girməyə qoymamışam. Çünki alaq otları gül dəstəsini korlayan kimi, bəzi təsadüfi tanışlıqlar da bir ailəni dağıdır.

N a z l ı. Yasəmən, görəsən, hansı alaq otundan söhbət gedir?

Y a s ə m ə n. Bizimçün də maraqlıdır.

R ö v ş ə n. Söhbət məktublardan, telefon zənglərindən gedir. Söhbət ondan gedir ki, sənin yad bir kişi ilə gülümsünərək bir dəfə danışmağın aylarla mənim yuxumu qaçırdır. Sən özünə bəzək-düzək verib gündə bir cür saçını darayanda, mən şübhədən saçımı yoluram. (*Telefon zəng çalır*) Budur ey, başlandı...

Humay o biri otaqdan əlidolu gəlir.

H u m a y. Telefona niyə cavab vermirsiniz? Rövşən!.. Xoş gəlmisən! Keç otur, utanma. Kamal, keç otur... (*Telefon dəstəyini götürür*) Alo, kimdir? Salaməleyküm. (*Nazlıya*) Tez gəl, dayındır.

N a z l ı (*dəstəyi götürür*). Bəli, mənəm, kefim kökdür. Hirsləndirən yox, əsəblərimlə oynayan yox. Sizi gözləyirik... Gəlməyəcəksiniz? Kollegiyanın iclası var? Eybi yoxdur. Hədiyyənizi aldım, çox sağ olun. Burada balaca məclisimiz var, dostlar təbrikə gəliblər. Rövşən? Mən onunla əlaqəni üzmüşəm. Sağ olun! (*Telefon dəstəyini asır, ətrafdakılara*) Dayımın hamınıza salamı var. Əlbəttə, bir nəfərdən başqa.

R ö v ş ə n. O bir nəfər bu saat gedə bilər. Əmioğlu, düş qabağıma!

K a m a l. Gedək? (*Öz-özünə*) Mən də Qumrala xəbər aparım ki, buradan da bir şey çıxmadı.

H u m a y. Hara gedirsiniz? Dəyirmana gəlməmisiniz ki? Bir tikə çörək yeyin...

R ö v ş ə n. Yox, Humay bacı, məsələ ciddidir. Mən istədim geri dönüm, o səadət günlərini bir də yaşayım, olmadı. Mən əl uzatdım...

N a z l ı (*sözünü kəsir*). Bəzən uzanan əllərə tikan batır.

R ö v ş ə n. Biz tikanlara öyrəşmişik.

N a z l ı. Tikanlı sözlər deməyə də öyrəşmisiniz.

Y a s ə m ə n. Yavaş danışın, yazıb çatdıra bilmirəm.

H u m a y. Yasəmənə bax ey!.. Bunların bədbəxtliyindən də pul çıxartmaq istəyir.

S ə a d ə t. Yasəmən, bağla dəftəri!..

Y a s ə m ə n. Bağladım. Onsuz da, elə tez-tez danışırlar ki, heç nə yaza bilmirəm.

N a z l ı. Qoyun yazsın, qoyun hamı bilsin ki, otellolar dövrü çoxdan keçib, qan qaraltmağın mənası yoxdur.

R ö v ş ə n. Mən gedirəm. Ancaq onu da bil ki... O naməlum adam... Sənə əl uzadan o xain, o "Ə" kimdirsə, qoy o "Ə" olsun, mən də "R". Gəl, əmioğlu! (*Gedir*)



K a m a l. Bağışlayın, bu vəziyyətdə onu tək qoya bilmərəm. (*Gedir*)

N a z l ı. Onun gülünü özünə qaytar. Humay, tez ol, nə qədər ki, uzaqlaşmayıblar, apar ver özünə.

H u m a y. O boyda gül dəstəsinə mənim gücüm çatmaz.

N a z l ı. İndi ki, belə oldu. Mən də ayrı cür eləyərəm. (*Güldanı götürür, sulu-zadlı pəncərədən küçəyə boşaldır*). Onun özü də mənə lazım deyil, gülü də!

H u m a y. Ay qız, neyləyirsən, küçədən keçənlər nə deyər! Baho, kiminsə başına düşdü. Heç olmasa, qonaqlardan utan!

N a z l ı. Qonaqlar məni bağışlasınlar! Humay, evdə nə varsa, gətir süfrəyə. Yeyək, deyək, gülək, çalaq, oynayaq... Azad, Səadət, oynayın, toyunuzu görməmişik, heç olmasa indi oynamağınızı görək. Yasəmən, keç pianonun arxasına.

Y a s ə m ə n. Mən niyə çalıram? Orkestr buradadır ki... (*Dirijora müraciətlə*) Maestro, rica edirəm!

Orkestr çalır. Səadət, Azad oynayır. Sonra Nazlı və Humay da oynamağa başlayırlar. X ə l i l kişi su içində, əlində gül dəstəsi gəlir.

X ə l i l (*öz-özünə*). Deyəsən, toydur. (*Ətrafdakılara*) Olsun, olsun, toyunuz mübarək olsun! (*Musiqi kəsilir, hamı təəccüblə baxır*) Küçədən keçəndə başıma həm su atdılar, həm də gül... Gəlin hanı, qoy bu gülü gəlinə təqdim eləyim. İçinizdə hamıdan çox gəlinə bu qız oxşayır. (*Nazlıya yaxınlaşır, gülü ona uzadır*)

N a z l ı (*təəccüblə*). Əmi, siz kimsiniz?

X ə l i l. Mən Xəliləm.

H u m a y (*Nazlıya*). Az, gülü götür, kişinin əli havada qaldı.

N a z l ı (*gülü alır*). Çox sağ olun.

S ə a d ə t. Nazlı, sənin indicə atdığın gülə oxşayır.

Y a s ə m ə n. Rövşənin gülünü həyat təkrar özünə qaytardı.

A z a d. Kişiyə yer göstərin, qalıb evin ortasında.

H u m a y. Əyləşin, pencəyinizi çıxardın, yaşdır.

X ə l i l. Çıxardaram da, hələ bir az da o yana gedərəm. O gülü tez suya qoyun, solar. Gülün kökü gərək həmişə suda olsun. Görmürsünüz, mənim də başımdan aşağı su töküblər ki, solmayım? (*Evə diqqətlə baxır*) Deyəsən, səhvən ayrı evə düşmüşəm, doğrudan toydur?

H u m a y. Xeyr, Nazlının anadan olan günüdür, balaca şadyanalıq eləyirik.

X ə l i l. Əcəb eləyirsiniz... Təbriklər və gözəl-gözəl cümlələr! (*Nazlı ilə görüşür*) Bağışlayın ki, mane oldum. Bir deyin görüm, Rövşən adlı bir oğlan və onun həyat yoldaşı bu evdə hansı mərtəbədə, hansı mənzildə yaşayır?

A z a d. Elə buradır, əmi, düz gəlmisiniz.

X ə l i l. Buradır? Əşi, qoy oturmuşuq.

Y a s ə m ə n. Bu da ki, Rövşənin həyat yoldaşı.

N a z l ı. Yasəmən!

X ə l i l. Bir də salaməleyküm! (*Nazlı ilə bir də görüşür*) Lap yerinə düşüb ha! Getdim o evə... Qonşular dedilər ki, burada yaşayırsınız. Qumralın xətrinə gəlmişəm. Qoy bu saat ona xəbər verim, sakit olsun.

H u m a y. Qumral kimdir?

X ə l i l. Bizim bacıqızı. Darıxma, bu saat hamısını danışacağam. Telefon sazdır?

H u m a y. Sazdır, buyur zəng elə. (*Nazlıya*) Mən gedim bu kişiyə pay gətirim. (*Gedir*)

Xəlil telefonun dəstəyini götürüb nömrəni yığır.

X ə l i l. Qumral, sənsən? Danışan Xəlil dayındır... Kamalın əmisi oğlugildən. Heyf, Kamal özü burada yoxdur. Sənin yanındadır? Nə danışırsan? Sənin məsələni həll eləməyə gəlmişəm də... Qoyaram canına yel dəysin? Nə? Necə? Nahaq yerə gəlmişəm? Niyə? Alo! Alo! Acığı tutub, dəstəyi asdı. (*Dəstəyi asır, aparata müraciətlə*) Heç çəmxəm eləmə, Xəlil ki, bir işə girişdi, öldü var, döndü yoxdur.

S ə a d ə t. Yasəmən, yəqin bu qocada bir iş var.

Y a s ə m ə n. Səs salma. Əlimə göydən düşüb.

N a z l ı. Heç nə başa düşmürəm.

X ə l i l. Mən bu saat sizə hər şeyi başa salım. Əvvəlcə Rövşən kimdirsə, onu çağırın gəlsin.

N a z l ı. Rövşənin daha bu evdə adı çəkilmir, əmi!

X ə l i l. Əşi, qoy oturmuşuq. Rövşənə nə oldu ki, işdən çıxartdılar?

A z a d. Çıxartdılar.

X ə l i l. Bəs, vəzifəsini kimə veriblər?

S ə a d ə t. Yeri hələ boşdur.

X ə l i l. Nazlı xanım, əgər cavan olsaydım, ərizə verərdim ki, o boş yerə məni götürəsiniz, heyif ki, bir az gecikmişəm.



N a z l ı. Kişilərin qocası ilə cavanını bir-birindən seçmək olmur.

Y a s ə m ə n. Sən xarici görkəmə nə baxırsan? Ürək cavan olsun. Düzdür, əmi?

X ə l i l. Lap düppədüz. (*Yasəmənə diqqətlə baxır*) Sən mənim gözümə tanış gəlirsən. Yenə köhnə yerindəsən?

Y a s ə m ə n. Köhnə yer hansıdır?

X ə l i l. Buna bax, məndən soruşur ha!.. Sanqaçalda bufetdə işləmirdin? (*Hamı gülür*) Niyə gülürsünüz? Yoxsa, səhv salmışam?

N a z l ı. Əmi, Yasəmən yazıçıdır.

X ə l i l. Nədir?

S ə a d ə t. Yazıçı, şair.

X ə l i l. Hə... eşitməmişəm. Məhsəti xanım – eşitmişəm. Natəvan Xurşud xanım – eşitmişəm. Amma Yasəmən adlı şair eşitməmişəm.

S ə a d ə t. Eşidərsiniz də...

A z a d. Hələ cavandır.

S ə a d ə t. İndi də pyes yazmaq istəyir.

X ə l i l. Nə olar – gözləyərik. Öyrəşmişik. O qədər pyes yazmağı vəd eləyib, yerinə yetirməyən yazıçı var ki...

A z a d. Bu elələrindən deyil, əmi: dedi, eləyər.

X ə l i l (*Azada*). Sən də gözümə tanış gəlirsən axı, qardaşoğlu?

A z a d. Mən də sizi haradasa görmüşəm!

X ə l i l. Məni hər yanda görə bilərsən. Xəlil dayını hamı tanıyır. Sən Zərdabda prokuror olmamısan?

A z a d. Xeyr, mən prokuror deyiləm.

X ə l i l. Orada mənim bir prokuror dostum var idi, lap sənə oxşayırdı. Hərçənd bir az cüvəllağı idi, amma yaxşı oğlanlardan biri idi.

A z a d. Mən sovxoz direktoruyam. Bu da maarif şöbəsinin müdiridir. Mənim həyat yoldaşımdır.

X ə l i l (*Səadətlə görüşür*). Salaməleyküm! (*Azada*) Lap yaxşı tapmısan. Sovxozun planı dolmayanda maarif müdiri tələbələri göndərər ixtiyarına...

Y a s ə m ə n. Nə məzəli qocadır!

S ə a d ə t. Qoca niyə olur? Görmürsən, hələ canı suludur, ürəyi cavandır.

X ə l i l. Lap düz dedin, qızım. İndi bildim ki, əsil müəlliməsən. Xarici görkəmə nə baxırsınız. Mənim kimi həyatdan zövq alan insanların ürəkləri qocalmır. (*Yasəmənə*) Sən şairsən, bilərsən. Kitabın

qabığı nə qədər cırıq, köhnə olur-olsun, içərisindəki yazılar həmişə cavan qalır.

S ə a d ə t. İyidin çulu cırıq olar.

N a z l ı. Amma bəzi məzmunsuz kitablar da var ki, əl vuran olmur, həmişə bəzəkli qalır.

X ə l i l. Bilirəm siz nəyə işarə eləyirsiniz. İnsan çətin kitabdır. Onu diqqətlə oxumaq lazımdır. Tələsik vərəqləyib bir tərəfə atmaq olmaz.

S ə a d ə t. Sözü gör hara gətirib çıxartdı!

X ə l i l. Hə, dinmirsiniz, Nazlı xanım, düz demirəm?

N a z l ı. Siz məni də tanıyırsınız?

X ə l i l. Nə yalan deyim, tanımıram. Çünki sənin kimilərini bizim rayonlarda bir gün işləməyə qoymurlar.

A z a d. Niyə?

X ə l i l. Bu saat deyim "niyə". Bir göyçək qız işə təyin olunan kimi, məsul işçilər başının üstünü kəsdirirlər, nəfəs almağa qoymurlar. Göz açıb yumunca, görürsən toyu eləyiblər.

A z a d. Əmi, sən niyə bizim rayonlara böhtan atırsan?

X ə l i l. Böhtan niyə atıram?! Elə götürək sənin özünü. Bax, bu Səadət xanım maarif müdiri təyin olunan kimi, qaraquş kimi aldın onu caynağına.

Y a s ə m ə n. Amma nə dedi!..

S ə a d ə t. Düz sözə nə demək olar! Heç əməlli-başlı toy eləməyə də qoymadı.

A z a d. Ancaq bir məsələ var, əmi, mən ki, onu qulluqdan çıxarmamısan, işləyir.

X ə l i l. Övladınız olana qədər! Bir uşağınız olan kimi bütün maarifi-lə mədəniyyəti qurban eləyəcəksiniz o uşağa...

Y a s ə m ə n. Elə bil xəzinə tapmışam.

S ə a d ə t. Əmi, mən o siz deyən arvadlardan deyiləm. Öz sənətimi heç nəyə qurban vermərəm.

X ə l i l. Bax, buna varam. Sən ki, belə mübarizsən, deməli uşağı sovxoz direktoru özü saxlayacaq.

Humay yemək gətirir.

X ə l i l. Hə, uşaqlar, bir tədbir tökmək lazımdır.

N a z l ı. Tədbir hazırdır. Biz onsuz da sabah axşam saat səkkizdə Humayın məsələsi üçün bu qarşıdakı bağda olacayıq. Əliqulu kişiyə



də de, gəlsin ora... Lap mən özüm danışaram, arxayın olun, yola gətirərik...

X ə l i l. Heç mən deməklə gələr?

S ə a d ə t. Məktub yazsanız, çağırsanız, gələr.

A z a d. Səadətin bu barədə təcrübəsi var.

Y a s ə m ə n. Məktub məndə. Bu saat yazım, onu da çağırım. Yasəmən ağacının altına.

Hamı onun yazdığı məktubla maraqlandıqda otaq qaranlıqlaşır. Səhnə qabağında işıq yanır. K a m a l və Q u m r a l tələsik gəlirlər.

K a m a l. Çatmışıq, onların evi buradı.

Q u m r a l. Dayım bizi biabır eləmədi? İndi mən tanımadığım evə necə gedim? Utanıram.

K a m a l. Getməsək işi daha da dolaşdıra bilər.

Q u m r a l (*avtomat telefonu götürür*). Gəlsənə, zəng eləyək?

K a m a l. Bu saat! (*Telefonda nömrələri yığır, Qumrala*) Al, özün danış. (*Qumral dəstəyi götürür*)

Otaqda telefon zəng çalır. Telefon olan tərəf işıqlanır. Humay dəstəyi götürür.

H u m a y. Alo, kimdir?

Q u m r a l. Zəhmət olmasa, dayımı telefona çağırın.

H u m a y. Ay qız, bu evdə yaşayanların hamısı xaladır, burada dayı yoxdur.

X ə l i l. Bəlkə məni çağırır?

Q u m r a l. Xəlil dayını deyirəm!

H u m a y. Bu saat. Gəl, a kişi, səni çağırırlar. Bəxtəvərin nə çox qohum-qardaşı var!..

X ə l i l (*dəstəyi götürür*). Kimdir məni çağıran?

Q u m r a l. Dayı, sənsən? Heç kəslə bir kəlmə danışma!

X ə l i l. Niyə? Qolçomaq çıxmışam? Səsimi alıblar?

Q u m r a l. Mənim barəmdə danışma, yad adamlara...

X ə l i l. Yad niyə olurlar? Öz uşaqlarımızdır, hamısını yaxşı tanıyıram.

Q u m r a l. Dayı nə danışırsan? Sən onları haradan tanıyırsan?

X ə l i l. Nə danışdığımı çox gözəl bilirəm. Sən qarışma. Burada hər şeyi sahmana salmışam. (*Dəstəyi asır*)

K a m a l. Nə dedi?

Q u m r a l (*həyəcan içində dəstəyi asır*). Onu sözündən döndərmək çətindir. Yaxşısı budur, özümüz gedək, daha utanmaqdan keçib.

K a m a l. Buradan gəl.

Çıxırlar. Otaq yenə əvvəlki kimi işıqlanır.

X ə l i l. Ay şair, məktub hazır olmadı?

Y a s ə m ə n. Hazırdır, elə yazmışam, daşdan keçər. Amma bilmirəm imza nə qoyum? (*Nazlıya*) Adını yazım?

N a z l ı. İmza heç lazım deyil. Onda maraqlanıb mütləq gələr.

X ə l i l. Ver qoyum cibimə. (*Məktubu alır*)

Qumral ilə Kamal içəri girirlər.

K a m a l. Xəlil dayı!

Q u m r a l. Bir dəqiqəliyə bura gəl!

X ə l i l. Nə var ki?

Q u m r a l. Gizlin sözüm var. Yad adamların yanında deməli deyil.

H u m a y. Ay qız, yad niyə oluruq ki?

N a z l ı. Kamal bizə qardaş kimidir. Yaxın gəl, hamımızla bir-bir tanış ol. (*Qumralın qolundan tutub hamı ilə görüşdürür*)

X ə l i l. Yaxşı ki, özün gəlib çıxdın. (*Hamıya*) Gördünüz, mənim bacım qızı Qumral necə Qumraldır? İnstitutu təzə bitirib, müəllimədir.

S ə a d ə t. Müəllimədir? Dayan, dayan. Qumral Əliqulu qızı? Ay qız, sən bizim rayona müəllimə təyin olunmusan, niyə gəlmirsən?

Q u m r a l. Mən hələ təyinat kağızını almamışam.

K a m a l. Mən harada işləsəm, o da orda işləyəcək.

X ə l i l. Kamal da institutu təzə bitirib, aqronomdur.

S ə a d ə t. Lap yaxşı. O da gələr Azadın sovxozuna. İkiniz də olarsınız bir rayonda. Azad, düzəldi?

A z a d. Bəli, etiraz eləmirəm.

K a m a l. Düzəldi deyəndə ki, bu biri tərəfdən vəziyyət çox ağırdır.

N a z l ı. Bilirsiniz nə var, əgər, aranızda həqiqi sevgi varsa, köhnə qayda-qanun sədd ola bilməz. Heç bir şeydən, heç kəsdən çəkinməyin.

H u m a y. Yaxşıca çalıb-oynayırdınız, bilmirəm aranıza kim soyuq su səpdi?

X ə l i l. Bacı, soyuq suyu mənim üstümə səpiblər.

H u m a y. A kişi, dünya görmüsən, al məclisi ələ, şadlıq başlansın.



X ə l i l. Başlansın da. Mən nə deyirəm ki? Birinci elə özüm süzərəm.

Mebeli bir tərəfə çəkirlər. Oynamağa hazırlaşdıqda qapı döyülür.

N a z l ı. Yəqin odur, yenə gəldi. Humay get, qapıdan qaytar.

H u m a y. Mən qapıdan qonaq qaytarmağı adət etməmişəm. (*Bərkdən*) Kimsən, gəl içəri!

Qapı açılır, iki nəfər böyük gül dəstəsini ortaya qoyub çıxır. Onlardan sonra Səfər içəri girir.

S ə f ə r. İcazə olar?

Hamıdan "buyur", "xoş gəlmisən" deyə səslər çıxır.

H u m a y. Qonağın yeri gözümüzün üstündədir.

S ə f ə r. Dəvətsiz gəldiyim üçün, hətta, üzr istəməyə də utanıram. Ürəyi yaralı bir şəxs tərəfindən bu hədiyyəni qəbul etmənizi xüsusi xahiş eləyirəm.

S ə a d ə t. Əcəb qabiliyyətli adamdır!

A z a d. Dayan, deyəsən, işin içində iş var.

N a z l ı. Hədiyyəni kim göndərib?

S ə f ə r. Xanım, adını faş eləmək mümkün olsaydı, özü gətirərdi, mənimlə göndərməzdi.

Y a s ə m ə n. Təzə məsələ meydana çıxır.

X ə l i l (*yaxınlaşıb Səfərə diqqətlə baxır*). Sıfır, sənsən? Bu nədir? Xeyir ola?

S ə f ə r. Dinmə, Xəlil! Ölüm-dirim məsələsidir. Sən burada neyləyirsən?

X ə l i l. Mənimki də ölüm-dirim məsələsidir.

N a z l ı. Bilməyək bu hörməti bizə kim eləyir?

S ə f ə r. Biləcəksiniz, özü sizə deyəcək. Sabah axşam saat səkkizdə bu qarşıdakı bağda, yasəmən ağacının altında, bu evin sahibəsini bir nəfər ürəyi yaralı oğlan gözləyəcək.

H u m a y (*təəccüblə*). Bu evin sahibəsini?

S ə f ə r. Bəli, xanım! Əgər, baş tutmasa, iş infarktla nəticələnəcək. Arxayın olummu?

N a z l ı (*sevincək*). Arxayın olun, arxayın olun.

S ə a d ə t (*Yasəmənə*). Deyəsən Humayın bəxti açıldı.

Y a s ə m ə n. Bu iş heç mənim ağlıma da gəlməzdi. Doğrudan da, ən gözəl əsəri həyat yaradır.

N a z l ı (*Səfərə*). Heç olmasa, oturun, bizim bayramımızda iştirak edin.

S ə f ə r. Xanım, öl desən, bu saat yıxılıb bu parketin üstündə ölərəm. Ancaq otura bilməyəcəyəm.

X ə l i l (*təəccüblə*). Sıfır, sən lap yekə artistsənmiş ki.

S ə f ə r. Qadın məclisinə ki düşdüm, Xəlil, bülbülə dönürəm. (*Məclisə*) İcazə verin, gedim hədiyyənin qəbul olunduğunu xəbər verib, yanan ürəyə bir az su səpim. (*Baş əyib çıxır*)

N a z l ı. Humay, təbrik eləyirəm, bacım!

Y a s ə m ə n. Xoşbəxtlik göydən zənbil ilə düşdü.

S ə a d ə t. Humay, toyu gecikdirmə...

H u m a y. A... tələsməyin ey... hələ heç üzünü görməmişəm.

A z a d. Xəlil dayı bizə sözün düzünü deyər. Bu kişini sən tanıyırsan, necə adamdır, elçiliyinə inanmaq olar?

X ə l i l. O barədə bir söz deyə bilmərəm. İmanımı necə yandırım? Ancaq bu gül dəstəsindən bilinir ki, elçi düşən qabiliyyətli adamdır.

H u m a y. Heç bilmirəm nə deyim?

X ə l i l. Danə, nümunəyi xalvarəst.

N a z l ı. Hə, indi gərək Humaya təzə paltar tikək və sabah axşam saat səkkizə kimi hazır eləyək. Yasəmən, Səadət, gəlin işə girişək!

S ə a d ə t. Bütün bəxti açılanlara eşq olsun, içində də Humaya! Gedək paltar tikməyə.

A z a d. Bəs, mən? Səadət evdə iynə saplayanda da mənimlə məsləhətləşir.

X ə l i l. Hə, bu olmadı. İndi ki, dərzixana açdınız, demək məclis bağlandı?

N a z l ı. Xəlil dayı, lap yadımızdan çıxmışdı ha!..

X ə l i l. Bir hövsələnizi dərin, mənim də sözüm var. Bəri gəlin görək. Diqqətlə qulaq asın. (*Hamı gəlib Xəlilin yanında oturur*) Bizim bu Kamalın bir dolaşıq işi var. Onu həll eləmək üçün Rövşənin yanına gəlmişdim. Amma indi bəzi ailələr də bəzi idarələr kimi olub. Müdir deyir sabah işini düzəldərəm. Sabahı gün gəlib görürsən ki, o müdirin öz işini düzəldiblər, yerində ayrı adam oturub.

N a z l ı. Mən xahiş edirəm ki, bu barədə söhbət olmasın.

X ə l i l. Acığın tutmasın, qızım, söz məsəli deyirəm. Kamal bizim bacıqızı Qumrala bir könüldən min könülə bənd olub. Yəni əslində Qumral özü də sevginin gücündən birtəhər olub. Bu işə mən dayısı razıyam, anası Gövhər razıdır, bircə atası Əliqulu razı deyil. Rövşəni axtarırdım ki, yığsın başına dost-aşnanı, o Əliqulu kişinin tərs damarını sındırsın. O da ki, yoxdur, nəuzi-billah, adını da çəkmək olmur.



N a z l ı. Nə olsun?! O yoxdur, biz varıq!

H u m a y. Kamal üçün nə lazımsa eləyərik.

N a z l ı. Qızın atasının adı nədir? Əliqulu?

X ə l i l. Necə bəyəm? Tanıyırsan?

N a z l ı. Eşitmişəm, ancaq üzünü görməmişəm.

X ə l i l. Bir görməli üzü də yoxdur.

N a z l ı. Kim olur-olsun, məncə bizim sözümüzü yerə salmaz.

Y a s ə m ə n (*dəftərinə qeyd eləyə-eləyə*). Deməli, qızın atasının adı Əliquludur?

X ə l i l. Neyləyirsən, protokol bağlayırsan?

S ə a d ə t. Yəqin bu barədə şeir yazır.

Y a s ə m ə n. Əmi can! Bizim də çörəyimiz belə-belə şeylərdən çıxır da...

K a m a l. Mənə qalsa, qorxub eləyən deyiləm.

Q u m r a l. Mən də qorxmuram. Ancaq atamla-anamın hörmətini saxlamaq borcumdur.

X ə l i l. Arxayın ol, qızım, biz burada elə tədbir tökmüşük ki, nə şiş yanacaq, nə də kabab.

S ə a d ə t. Biz də kömək edəcəyik, hə, Azad?

A z a d. Bəli, vəzifəmizdir.

Y a s ə m ə n. Sevginin qarşısında dağ da dursa, davam gətirməz. Atanı da razı salacağıq, ananı da. Hələ o biri pərdədə sizə yaxşı elçilik də eləyəcəyik.

P ə r d ə

## ÜÇÜNCÜ PƏRDƏ

### ÜÇÜNCÜ ŞƏKİL

Pərdə qabağı

D o n d u r m a s a t a n. Dondurma!.. Dondurmaya gəl! Yeyin, diliniz şirin olsun, yeyin, ürəyiniz sərin olsun, marojna, eskimo, plombir!..

Rövşən fikirli keçdikdə Yasəmənlə rastlaşır.

Y a s ə m ə n. Rövşən, hara belə?

R ö v ş ə n. Heç hara. Nazlı məni bir günə salıb ki, başımın yerini itirmişəm.

Y a s ə m ə n. Təqsir səndədir.

R ö v ş ə n. Təkcə məndə?

Y a s ə m ə n. Bir az da onda var, hər ikiniz müqəssirsiniz. Yaxşısı budur, barışın getsin.

R ö v ş ə n. Mənim sözüm yoxdur ki... Tərslik eləyən odur.

Y a s ə m ə n. Mən bu saat bulvara gedirəm. Nazlı da ora gələcək. Böyük yasəmən ağacı var ha, onun dalında gözlə. Barışıq vaxtı çatanda bir işarə ilə sənə xəbər verərəm.

R ö v ş ə n. Düz işimiz düşmədi ağac dalına? (*Gedirlər*)

Pərdə açılır. Bulvar. Uzaqdan dəniz görünür. Böyük yasəmən ağacı. S ə f ə r gəlir. Narahat gəzinir. Birdən içəri girən Əliqulunun qabağına qaçır. Ə l i q u l u pərişandır. Şlyapa bir tərəfə gedib, qalstuk o biri tərəfə. Yorğun halda skamyanın üstündə oturur.

S ə f ə r. Yenə pərişansınız, Əliqulu Baloğlanoviç?

Ə l i q u l u. İşlər yaman çalpaşıq düşüb. Bircə tükdən asılıyam; o yanlıq da ola bilərəm, bu yanlıq da. Məni neyləyirdin? Nə xəbər gətirmisən?

S ə f ə r. Bu axşam saat səkkizdə bura gəlir.

Ə l i q u l u. Kim?

S ə f ə r. Nazlı xanım.

Ə l i q u l u. Bəs bu vaxta qədər mənə niyə deməmisən?

S ə f ə r. Bütün günü qarovulunuzu çəkmişəm. Başınız açılıb ki?

Ə l i q u l u. Hə, komissiyanın biri gedir, o biri gəlir.

S ə f ə r. Rayondan da bir maarif müdiri gəlmişdi, sizi axtarırdı. Yaman dara-bara salmışdı.

Ə l i q u l u. O nə istəyir?



S ə f ə r. Deyir, məktəblərə uşaq palтarı əvəzinə bir vaqon qaloş göndərmisiniz. Katibəniz başdan elədi.

Ə l i q u l u. Elələrini başdan eləmək olar? Gedib çıxıb qoskontrola, iclas ona görə uzandı.

S ə f ə r. Mən də gördüm uzanır, başqa adamın səsi ilə zəng eləməyə məcbur oldum.

Ə l i q u l u. Deməli, saat səkkizdə? Bəs neyləyək? Bir yandan da bu Xəlil kəsilmiş məni rahat qoymur. Bir məktub gətirib, kim isə mənimlə görüşmək istəyir.

S ə f ə r. Kim olduğunu demir?

Ə l i q u l u. Bilmir. Deyəsən, cavan qadındır.

S ə f ə r. Onu haradan bildiniz?

Ə l i q u l u. Məktubun ətrindən.

Məktubu göstərir, Səfər alıb iyləyir.

S ə f ə r. Ədqalondur.

Ə l i q u l u. Sən bilən bu qadın məndən nə istəyir?

S ə f ə r. Yəqin bizim idarədə işləyən işçilərdəndir. Ərizəsi var, məvacibini artırmaq istəyir.

Ə l i q u l u. Bağda, yasəmən ağacının altında məvacib artırarlar?

S ə f ə r. Yasəmən ağacının altında o qədər məvaciblər artıb ki!.. Harda gözləyəcək?

Ə l i q u l u. Yazmır. Bu bağda azından yüzə qədər yasəmən ağacı var. Hamısının da kölgəsində arvadlar oturub. Məktub yazanı mən hardan tapım?

S ə f ə r. Hansı arvaddan bu ədqalonun iyi gəlsə, deməli odur.

Ə l i q u l u. Əşi, məzəlilik eləmə, arvadları iyləyə-iyləyə gəzməyəcəyəm ki. İşini gör. Sən mənə Muradovun bacısı qızından danış.

S ə f ə r. Hə, o barədə nə deyim? Əla sortdur. Ancaq bir söz deyəcəyəm, inciməzsiniz ki?

Ə l i q u l u. De gəlsin.

S ə f ə r. Gərək siz də xarici görkəminizə bir az fikir verəsiniz.

Ə l i q u l u. Bəzək-düzək lazımdır?

S ə f ə r. Bir az müştərigir olsanız yaxşıdır?

Ə l i q u l u. İşə düşmüşük ki? Vəzifə... Vəzifə... Vəzifənin səfası varsa, cəfası da var... Al bu portfeli saxla, mən də gedim, sir-sifətimə bir az yamaq-yumaq vurum. Amma itib batma ha! Sonra səni tapmaram.

S ə f ə r. Arxayın olun! (*Gedirlər*)

Azad ilə Səadət içəri girir.

A z a d. Hə, indi də bir az oturaq. O qədər yer gəzdik ki...

S ə a d ə t. Heyif, o kişiyə rast gəlmədim. Yoxsa, ona bir toy tutacaqdım ki...

A z a d. Qoskantrolda hamısını danışdın da... deyir çıxardırlar.

S ə a d ə t. Elələri yaş balıq kimidir. Ələ alan kimi yenə sürüşüb suya düşür.

A z a d. Deyəsən, bu səfər yaman xirtdəkləyiblər. (*Papiros yandırır*)

S ə a d ə t. Papirosu at bir tərəfə. Gözümdən yayınan kimi tüstün təpəndən çıxmağa başlayır.

A z a d. Mən təslim! Atdım. (*Papirosu yerə atır*)

S ə a d ə t. Ora yox. Görmürsən sənin kimilər üçün xüsusi qab qoyublar?

A z a d (*papirosu yerdən götürüb zibil qabına atır*). Canın üçün, Səadət, atam-anam üzümü bu qədər danlamamışdı.

S ə a d ə t. Vaxtında danlamayıblar, onların da vəzifəsi mənim boynuma düşüb. Gəl otur yanımda. Niyə fikirlisən?

A z a d. O qədər iş var ki, elə bil, fikir beynimdə qaynayır.

S ə a d ə t. Qaynayan qazanın qapağını açıq qoyarlar. (*Azadın şlyapasını başından çıxardır*)

A z a d. Sabahdan gərək sovxoz üçün çoxlu maşın təhvil götürəm.

S ə a d ə t. Çox çəkəcək? Evimiz üçün elə darıxmışam ki!..

A z a d. Hələ bir-iki gün də burdayıq. Sən işlərini qurtarmısan, qalmışam mən. Mən də qurtarım, sonra yola düşərik.

S ə a d ə t. Onda boş-boş gəzməyək, teatrlara, konsertlərə gedək.

A z a d. Darıxma. Gəzmək sənə vacibdir.

S ə a d ə t. Gəzmək mənə lazımdır, ancaq mağazalarda yox, açıq havada, bağda, çəməndə...

A z a d. Rayonda hər gün səni Ceyran düzünə gəzməyə aparacağam.

S ə a d ə t. Bir ildir Ceyran düzü yadına düşmürdü. Nə olub? İndidən onu məndən çox istəməyə başlamısan?

A z a d. Nə fərqi, o da sənsən də... Keçmişdə ata-babalarımız övlada ciyərpara deyərdilər. Yəni, ciyərin bir parçası. Aha, yaxşı yadıma düşdü. Bir şey qalıb, onu almamışıq...



S ə a d ə t. Nədir ki?

A z a d. Kolyaska, uşaq üçün kolyaska... Bu yaxındakı dükanda gördüm.

S ə a d ə t. Fikrin-zikrin onun yanındadır.

Nazlı ilə Yasəmən içəri girirlər.

N a z l ı. Elçiyə oxşayıram?

S ə a d ə t. Elçidən çox gəlinə oxşayırsan.

Y a s ə m ə n. Gəlindir də... Heyif ki, əri Məcnun olub, düşüb səhralara.

A z a d. Barışmaq lazımdır. Hər ikiniz əzab çəkirsiniz. Özü də heç nəyin üstündə.

N a z l ı. Məni də yandıran odur. Ortada heç bir şey yoxdur, ancaq ailə dağıldı, arada min söz-söhbət oldu.

S ə a d ə t (*Yasəmənə*). Deyəsən, yumşalıb. Rövşən gəlib çıxsaydı, barışardılar.

Y a s ə m ə n. Rövşən mənim bir işarəmə bənddir. Bu saat çağırım. (*İşarə edir. Rövşən ağacın arxasından çıxır*) A... Rövşən, sən buradasan? Bizim yanımıza gəlsənə!

R ö v ş ə n. Mane olmadım ki?

Y a s ə m ə n. Nazlıdan indicə soruşurduq, bəs, kölgən haradadır?

R ö v ş ə n. Yasəmən, mən heç zaman kölgə olmamışam.

N a z l ı. Kölgə yox, arvadını təqib eləyən əli dəyənəkli məşədi.

S ə a d ə t. Nazlı, barış getsin.

N a z l ı. Düz deyirəm də.

R ö v ş ə n. Düz demirsən. Sən özün məni şübhələrdən-şübhələrə salırsan. Bir kərəlik desən ki, başqasını sevirəm, get... Mən də bilərəm neyləmək lazımdır. Ancaq sən məni oddan çıxarıb, alova atırsan.

Nazlı dinmir, bir tərəfdə oturur.

Y a s ə m ə n (*Səadətə*). Biz gedək, onlar danışıb ürəklərini soyutduqdan sonra barışacaqlar.

S ə a d ə t. Gedək, Azad, gəl.

Bulvarın bir tərəfinə çəkilirlər.

R ö v ş ə n. Yanan adam özünü ora-bura çırpar da...

D o n d u r m a s a t a n (*səhnə arxasından*). Ürəyin yanır, dondurma ye, yorulmusan dondurma ye, vurulmusan, dondurma ye!..

R ö v ş ə n. Nazlı! (*Nazlı dinmir*) Nazlı, bir de görüm, nə üçün məni bu qədər incidirsən? Səni sevəndən bu günə qədər həmişə əzab içində olmuşam.

N a z l ı. Səbəb mən deyiləm, sənsən.

R ö v ş ə n. Niyə?

N a z l ı. Çünki özün-özündən alışıb-yanırsan.

R ö v ş ə n. Bəs, məktub?

N a z l ı. Mən, o məktubları cırıb tullayıram. Heç oxumuram da.

R ö v ş ə n. Deməli, adı "Ə" hərfi ilə başlayan adamla tanış deyilsən?

N a z l ı. Yox, tanımıram!..

R ö v ş ə n. Doğru deyirsən, Nazlı? Deməli, mənim qısqanmağım nahaqdır?

N a z l ı. Lap nahaqdır! Ortada məni biabır eləyirsən.

R ö v ş ə n. Səhv eləmişəm. Üzr istəyirəm, bağışla!

N a z l ı. Sən məni o qədər incitmisən ki...

R ö v ş ə n. Neyləyim, özümlə deyil, elə bil sinəmdə min ürək var, mini də səni sevir.

N a z l ı. Mini də qısqanır.

R ö v ş ə n. İcazə ver, əlini öpüm.

N a z l ı. Nə asanlıqla barışmaq istəyirsən?

R ö v ş ə n. Başqaları məzuniyyət alır, kurortlarda istirahət eləyir, amma mən hər şeyi unutmuşam. Futbola getmirəm, hətta, boksu da atmışam. Öz məzuniyyətimi sənin lə barışmağa həsr eləmişəm. Bu azdır?

N a z l ı. Barışmağa, ya dalaşmağa?

R ö v ş ə n. Di bəsdir. Sən mənim gözəl, nazlı arvadımsan.

Azad, Səadət, Yasəmən onların barışdıqlarını görüb, "Aha, barışdılar" – deyə səslənirlər, yaxınlaşırlar.

Y a s ə m ə n. Çox ağıllı iş gördünüz ki, barışdınız. Hərçənd əsərimin süjeti dəyişdi, ancaq eybi yoxdur. Mən də orada sizi barışdıraram.

A z a d. Təbrik eləyirəm, Rövşən.

S ə a d ə t. Axır ki, bu yazığı üzügülər gördük.

N a z l ı. Ancaq Rövşən can, bizim burada bəzi xırda-para işlərimiz var. Ona gərək mane olmayasan, bildin?

R ö v ş ə n. Nə iş?



Y a s ə m ə n. İndi vaxt yoxdur. Sonra başa salarıq. Bəs, Humay nə oldu?

S ə a d ə t. Odur gəlir.

H u m a y içəri girir. O, təzə paltar geymişdir.

N a z l ı. Humayı da bəzənən gördük.

H u m a y. Bəsdir, sataşma! Hələ görək bəxtimizə nə çıxır.

N a z l ı. Söhbəti çox uzatma, ha!..

H u m a y. Yox a... Haradadır məndə o hövsələ?..

N a z l ı (*Yasəmənə yavaşdan*). Rövşəni sənə tapşırıram, başını qarışdır, yoxsa, aləmi bir-birinə qatar.

Y a s ə m ə n. Yaxşı. Gəl, Rövşən bu gün sənin xoş günündür.

R ö v ş ə n. Bu gün səadət günüdür.

Çıxırlar. Səhnədə yalnız Humay qalır. D o n d u r m a s a t a n və X ə l i l gəlirlər.

D o n d u r m a s a t a n. Dondurma, dondurmasız ömrünü başa vurma! Dondurmasız bir dəqiqə durma. Başın ağrıyır: dondurma ye! Dişin ağrıyır: dondurma ye! Dərdin çoxdur: dondurma ye! Yuxun yoxdur: dondurma ye! (*Gedir*)

Xəlil əlində qəzet, skamyanın üstündə oturur, sonra onun nəzər-diqqətini Humay cəlb edir.

X ə l i l (*Humaya*). Bacı, mən sizi haradasa görmüşəm. Sabunçu vağzalının tinində qutab satmırsınız?

H u m a y. Bıy, bu nə sözdür danışırsınız?

X ə l i l. Dayan, dayan!.. Zaqatalada fındıq tədarükündə işləmirdiniz?

H u m a y. Başıma xeyir, gör məni hara aparıb çıxartdı!..

X ə l i l. Tapdım-tapdım... diş doktorusunuz?

H u m a y. A... Ay qardaş, fikrin özündə deyil, nədir? Dünən bizim evdə çalıb-oynamırdıq?

X ə l i l. Əşi, bunu bayaqdan de də... Humay xanımsınız. Deyirəm, axı, bu suyuşirin arvad kimdir?

H u m a y. Mən heç diş doktoruna oxşayıram?

X ə l i l. Gəncədə elə sizin kimi xanım-xatın bir doktor vardı, hey darıxanda gedərdim yanına, dişimi çəkərdi.

H u m a y. Darıxanda əcəb ürəkaçan məşğuliyyət tapırdınız?..

X ə l i l. Dünən o gül göndərən adamdan xəbər çıxmadı?

H u m a y. Xeyr, hələ bir səs-səmir yoxdur.

X ə l i l. O olmasın, mən olum. Söhbət məndə nə qədər istəsəniz.

H u m a y. Siz çox siyasətcil kişiyə oxşayırsınız. Dünən bizə o gül gətirənlə nə pıçıldaşırdınız?

X ə l i l. Heç, elə-belə. Kefini xəbər alırdım.

H u m a y. Başa düşdüm. Bacım qızı belə sevir, atası belə razılıq vermir... Bunlar hamısı bəhanə imiş, hə?

X ə l i l. Xeyr, canım, həqiqətdir.

H u m a y. Bir yandan deyirdiniz xəbərim yoxdur, o biri yandan da deyirdiniz gül göndərən kimdirsə, qabiliyyətli adamdır. Siyasət işlədirdiniz, hə?

X ə l i l. İşə düşmədik?

H u m a y. Bəs, arvadınızı niyə özünüzlə bağa gətirməmisiniz?

X ə l i l. Olmayan şeyi necə gətirim?

H u m a y. Necə, ayrılmısınız?

X ə l i l. Anadangəlmə olmayıb.

H u m a y. Bəs o diş doktoru?

X ə l i l. Kim bilir, indi hansı rayondadır...

H u m a y. Deməli, heç evlənməmisiniz?

X ə l i l. İşdən macal tapa bilmişəm ki?

H u m a y. İndi, bəs, işləmirsiniz?

X ə l i l. Yox, təqaüdə çıxmışam.

H u m a y. Niyə, hələ cavansınız ki?

X ə l i l. İcazə verin bu cavan oğlan yanınızda əyləşsin. Salamələyküm, nə var, nə yox? (*Oturur*)

H u m a y (*qalxır*). Niyə, pis deyiləm. Görəsən, gələn dəfə məni kimə oxşadacaqsınız?

X ə l i l. İndi daha min adamın içində də olsanız, yenə tanıyaram. Hara belə? Hələ təzə-təzə söhbəti qızışdırırıq.

H u m a y. Gedim bizimkiləri axtarım tapım. Nigaran qalarlar.

X ə l i l. Yanınızla bir kişi xeylağı getsə, etiraz eləməzsiniz ki?

H u m a y. Nə bilim? Hələlik bir söz deyə bilmərəm!

Danışa-danışa çıxırlar. S ə f ə r gəlib darıxmış halda saata baxır.

S ə f ə r (*öz-özünə*). Bu Əliqulu kəsmiş harada qaldı? Bu qədər də geyinib-keçinmək olar? Bəzənməkdənsə, ciblərini doldur. Kişi ki, əllini keçdi, qadınlar onun sifətinə yox, cibinə bənd olurlar.



R ö v ş ə n tələsik içəri girir, telefon budkasına yaxınlaşır.

R ö v ş ə n (*öz-özünə*). Yenə arvadı itirdim. Zəng eləyim, bəlkə bacısıgildədir. (*Ciblərini axtarır, Səfərə*) Yoldaş sizdə ikiqəpiklik olar?

S ə f ə r (*öz-özünə*). Tələsik bir toy bütün düyünləri açar...

R ö v ş ə n. Mənim sualıma cavab vermədiniz.

S ə f ə r. Mənim bu saat öz suallarım cavabsız qalıb.

R ö v ş ə n. Sən də arvadını itirmisən?

S ə f ə r. Hardadır məndə o bəxt? Al bir neçə ikiqəpiklik. Arvad ki, itib, sən hələ çox zəng eləməli olacaqsan...

Pul verir. Rövşən budkaya girir. Ə l i q u l u xarici görkəmini tamamilə dəyişmiş halda səhnəyə gəlir.

Ə l i q u l u. Hələ gəlməyib? (*Səfər onu tanımadığı üçün dinmir*) Karsan, səninlə deyiləm?

S ə f ə r. Əliqulu Baloğlanoviç? Maşallah, maşallah, mən sizi heç tanımadım.

Ə l i q u l u. Hə, necədir? İndi bəyənərlər məni?

S ə f ə r. Əvvəlcə elə bildim siz bu cavan sportsmenlərdənsiniz. Adam da bir saatın içində bu cür cavanlaşarmış!

Ə l i q u l u. Bəs necə?! Üstümü unlu görüb, adımı dəyirmançı çağırırdın...

Rövşən telefon budkasından çıxır.

R ö v ş ə n (*öz-özünə*). Evdə də yoxdur. Məni qınayan, sənə nə deyim? Belə olur ki, şübhələnirəm də...

Ə l i q u l u (*Səfərə*). Az qalıb. Yəqin vaxtında gələr, eləmi?

S ə f ə r. Bir az gecikər də... Gözəl arvadlar özlərini ağır tutarlar.

Ə l i q u l u. Batdıq getdik ki... Məndə də hövsələ yox... Adı nə idi?

S ə f ə r. Nazlı.

Ə l i q u l u. Naza deyərik də.

S ə f ə r. O sizin ailə işinizdir.

R ö v ş ə n (*öz-özünə*). Qəribədir, deyəsən bizim arvaddan danışırlar?!

Ə l i q u l u (*Rövşənə diqqətlə baxır*). Səfər, bu adamdan mənim gözüm su içmir.

S ə f ə r. Yazığın arvadı itib.

Ə l i q u l u. Nə xoşbəxt insandır!

K a m a l. Onu düz deyirsən. İşi düzüb qoşandan sonra deyərik. Birdən buralara gələr ha!..

Q u m r a l. Gəlməz, hələ anamın ayağı bu bağa dəyməyib...

K a m a l. Niyə?

Q u m r a l. Tək gəlməyəcək ki? Atam anamla gəzməyə çıxmağı ayıb hesab eləyir.

K a m a l. Deməli, anan buraları heç tanımır?

Q u m r a l. Yox. Mənə inanmırsan?

K a m a l. Bilmirəm sənə inanım, yoxsa gözlərimə?

Q u m r a l. Necə ki?

K a m a l. O tərəfə bax, gör bura gələn kimdir?

Q u m r a l (*baxır, həyəcanla*). Anamdır, bura gəlir, bəs neynəyək?

K a m a l. Bu oldu proqramdan xaric. Eybi yoxdur, qoy gəlsin, söhbətdə o da iştirak eləyər.

Q u m r a l. Onda atamın yenə tərsliyi tutacaq. Anam nə desə, atam onun tərsini eləyir.

K a m a l. Əcəb sakit həyat sürürlər! Bəs necə olsun, heç nə fikirləşə bilmirəm. Hamısı mənim bəxtimdəndir, işim həmişə gərək tərs düşə...

Gövhər gəlir.

Q u m r a l. Anacan, gəzməyə gəlmisən?

G ö v h ə r. Sənin dərdini çəkməkdən heç bilmirəm neyləyim! Səhərə kimi yatmamısan. İndi də tələsik geyinib getdin. Dalınca qaçmışam. Bilsəydim ki, Kamal yanındadır, arxayın olardım.

Q u m r a l. Sən mənim yatmadığımı haradan bildin, anacan?

G ö v h ə r. Ana övladının hər işini bilir.

K a m a l. Xoş gördük, ana!

G ö v h ə r. Səndən də xəcalət çəkirəm, oğul! Əliqulunun üzü qara olsun!

K a m a l. Eybi yoxdur, ana, axırı xeyir olsun. (*Qumrala*) Gör saat neçədir?

Q u m r a l (*yavaşdan Kamala*). Vaxtdan keçir, onlar burada görüşəcəklər. Anamı ayrı yerə aparaq, mane olmasın. Ana can, sən bu bağa birinci dəfə gəlirsən?

G ö v h ə r. Yox, qabaqlar olmuşam, ancaq o vaxtlar belə deyildi. İndi çox qəşəngləşib.

K a m a l. O tərəfləri daha da gözəl eləyiblər. Gül-gülü çağırır.



G ö v h ə r. Elə bura da yaxşıdır.

Q u m r a l. İstəyirsən, mən gedək o tərəfləri gəzək.

G ö v h ə r. Bu paltarda adam içinə çıxa bilmərəm, eyib deyil?

K a m a l. Bizim aramızda gedərsiniz, sizi görən olmaz.

G ö v h ə r. Yox, yox, eyibdir.

Q u m r a l (*onun qoluna girir*). Gedək, ana can, gedək!

K a m a l. Yaxşı mənzərələr var... Tamaşa eləyək.

G ö v h ə r. Ay balam, məni hara aparırsınız?

Gövhəri aparırlar. Bu yandan N a z l ı, Y a s ə m ə n H u m a y ı səhnəyə gətirirlər.

N a z l ı. Hə, de görək nə oldu?

Y a s ə m ə n. Ətraflı danış!

H u m a y. Dünən bizə bir kişi gəlmişdi ha...

Y a s ə m ə n. Hansı, gül gətirən?

H u m a y. Yox, o biri...

N a z l ı. Xəlil dayı...

H u m a y. Hə, bütün bu işlər onun qurmaları imiş.

Y a s ə m ə n. Sən gör nə incə tor toxuyurmuş!

N a z l ı. Nə dedi, axı?

H u m a y. Oradan, buradan, diş doktorundan söhbət salıb, gəldi mətləb üstünə. Mən cavab vermədim, dedim, qoy sizinlə məsləhətləşim, sonra.

N a z l ı. Məsləhətdir, bacım, məsləhətdir.

Əliqulu ilə S ə f ə r gəlirlər.

Y a s ə m ə n. Danışmayın, gəlirlər.

N a z l ı. Yasəmən, sən Rövşənə göz-qulaq ol, qorxuram gəlib aləmi qarışdıra.

Y a s ə m ə n. Arxayın ol.

Ə l i q u l u (*Səfərə*). Hansıdır?

S ə f ə r. O qəşəngi.

Ə l i q u l u. Doşab almışıq, bal çıxıb ki!..

N a z l ı. Siz gedin, mən söhbəti başlayım.

S ə f ə r. Nazlı xanım, Əliqulu Baloğlanoviçlə tanış olun!

N a z l ı. Böyük məmnuniyyətlə.

Əliqulu və Nazlı görüşürlər.

Ə l i q u l u (*Səfərə*). Sən əkil, amma uzaq getmə.

S ə f ə r. İcazə verin, gözəl hüzurunuzu tərk eləyim.

H u m a y. Bizi də bağışlayın, Yasəmənlə balaca işimiz var. Qabaqcadan deyirəm: Allah xeyir versin!

Y a s ə m ə n. Xeyirli olsun!

Humay və Yasəmən gedirlər. Əliqulu ilə Nazlı səhnədə qalırlar.

Ə l i q u l u. Bacı nə gözəl söz dedi?!

N a z l ı. Mənim heç təcrübəm yoxdur. Bilmirəm belə vaxtlarda nə deyərlər, söhbəti nə ilə başlayarlar?

Ə l i q u l u. Belə vaxtlarda əvvəlcə sükut eləmək lazımdır. Yan-yana, göz-gözə... Mənim gözlərimdən siz ürəyimdəki sözləri başa düşərsiniz.

N a z l ı. Təkcə gözdən nə çıxar ki? Gərək söz deyib, söz eşidək. Qayda belədir.

Ə l i q u l u. Gözəl qaydadır.

N a z l ı. Düzü, deməyə bir az utanıram.

Ə l i q u l u. Utanmaq köhnə adətdir, nədən utanırsınız? Həyatın qanunudur.

N a z l ı. Düz deyirsiniz, həyatın qanunudur: bir qız bir oğlanındır.

Ə l i q u l u. Əşi, vallah, bu cür sözlərə ürək davam gətirməz.

N a z l ı. Ürəyiniz zəifdir?

Ə l i q u l u. Xeyr, canım, cavan adamam, niyə zəif olur ki? Mənim ürəyim barıt çəlləyi kimidir. Kiçik bir oda bənddir, o saat partlayır, alışıb-yanır.

N a z l ı. Ürək gərək həmişə alışıb yansın.

Ə l i q u l u. Bax, mən o cür adamam, görəcəksiniz.

N a z l ı. Hiss eləyirəm. Bəs, cavabınız nədir? Ancaq qəti olsun bizimkilərin gözü yoldadır.

Ə l i q u l u. Cavab! Qəti cavab istəyirsiniz? Deyəsən od düşdü barıt anbarına. Partlayış olsa, qorxmayın.

Rövşən içəri girir.

R ö v ş ə n. Nazlı, partlayış mənim ürəyimdə olacaq.

N a z l ı. Rövşən, sənə nə olub? Nə danışırsan?

R ö v ş ə n. Axır ki, axtardığım adamı tapdım.

N a z l ı. Harada?



R ö v ş ə n. Budur, burada, qabağımızda. "Ə"... Adını da öyrənmişəm: Əliqulu...

Ə l i q u l u. Bəli, cavan oğlan, adım Əliquludur. Nə olsun ki?

R ö v ş ə n. "Nə olsun ki"ni bu saat sənə başa salaram.

Ə l i q u l u. Ey... ey...

N a z l ı. Bir az səbirli ol da... Get, məni o tərəfdə gözlə, bu saat gəlirəm. Mane olma, güclə yola gətirirəm ey...

R ö v ş ə n. Sən bu kişini güclə yola gətirirsən?

N a z l ı. Hə, hə, işin içində iş var.

Yasəmən gəlir.

N a z l ı. Yasəmən, axı, mən sənə tapşırdım...

Y a s ə m ə n. Rövşən, bura gəl, sözüm var.

R ö v ş ə n. Yasəmən, sən də bu işdə iştirak eləyirsən?

Y a s ə m ə n. Bəs necə? Xeyir işdir ey... Gedək, mane olmayaq.

Rövşəni çəkib aparır. Nazlı həyəcanlıdır, ancaq Əliquluya bildirmək istəmir, yalandan gülümsəyir.

Ə l i q u l u. Bu oğlan kim idi?

N a z l ı. Qardaşımdır.

Ə l i q u l u. Hirsli cayıla oxşayır.

N a z l ı. Əsəb xəstəliyi var. Eybi yoxdur, biz söhbətimizə davam eləyək.

Ə l i q u l u. Dayınızdan heç danışmırsınız? Muradov yoldaş necədir?

N a z l ı. Dayımı da tanıyırsınız?

Ə l i q u l u. Bəs necə? O cür adamı tanımayan olar?

N a z l ı. Mənim xətrimi çox istəyir.

Ə l i q u l u. Bilirəm, uzaqdan-uzağa bələdliyim var.

N a z l ı. Qohum olandan sonra lap yaxından tanıyarsınız.

Ə l i q u l u. Qohum olmağımız deyirsən, nəqddir?

N a z l ı. Əlbəttə, ortada sevgi var, sevgiyə qarşı durmaq olmaz!

Ə l i q u l u. Sevgi bizim tərəflərdə daha şiddətlidir.

N a z l ı. Onda nəyin məəttəliyik? Deməli, hə?

Ə l i q u l u. Hə, gözəl qadın, milyon dəfə hə!..

N a z l ı. Demək, razılaşırıq?

Ə l i q u l u. Qəbirə qədər.

Gövhər gəlir. Əliqulunu tanımır.

G ö v h ə r (*öz-özünə*). Burada da yoxdurlar. Birdən-birə uşaqları itirdim. (*Əliquluya*) Ay qardaş, burada oğlan ilə qız görmədiniz ki?

Ə l i q u l u (*səsini dəyişir*). Yox, görməmişəm.

G ö v h ə r. Sağ olun. Bağışlayın, söhbətinizə mane oldum. (*Çıxır*)

Ə l i q u l u (*öz-özünə*). Yaxşı ki, arvad məni tanımadı. Qorxudan elə bil bədənimdə elektrik kontakt elədi.

N a z l ı. Qaldı işin rəsmiləşdirilməsi... Qayda necədir, bilmirəm, məsləhətləşərik...

Ə l i q u l u. Mənim nümayəndəm Səfərdir, nə lazımdırsa, ona deyin.

N a z l ı. Çox yaxşı. İcazə verin, gedim, bu xoş xəbəri bizimkilərə çatdırım.

Ə l i q u l u. Nə tez gedirsiniz? Biz hələ heç doyunca söhbət eləmədik...

N a z l ı. Söhbət üçün qabaqda o qədər vaxtımız olacaq ki. (*Gedir*)

Ə l i q u l u (*tək, öz-özünə*). Bu yaşda, bu cür eşq zərbəsinə dözmək çətindir. (*Birdən səhnə arxasında Səfəri görüb səsləyir*) Səfər! Səfər! (*Səfər içəri girir*) Barıt anbarının qapısı alışıb-yanmağa başladı, od keçəcək içəri, özünü qoru!..

S ə f ə r. Eybi yoxdur, dəniz yaxındadır. Xanım getdi?

Ə l i q u l u. Getdi, Səfər, getdi. Ağlımı, huşumu, külli-ixtiyarımı da özüylə aparıb getdi.

S ə f ə r. Necə oldu?

Ə l i q u l u. Necə olacaq? İldırım kimi məni vurdu.

S ə f ə r. Qazan qaynadı?

Ə l i q u l u. Lap daşır. Əşi, özü məndən betər imiş. Səfər, belə şey görməmişəm. Məni görən kimi qızın ağlı başından getdi. Təklifi birinci o elədi, məni ağzımı açmağa qoymadı. Hə, indi sən gərək onu tapasan və öyrənəsən görək nişan nə vaxtdır, toy haçandır, mən onun evinə gedirəm, yoxsa, o mənim evimə gəlir?

S ə f ə r. Bəs niyə özünüz danışmadınız?

Ə l i q u l u. Sıfırsan ki, sıfır... Məhəbbətdən boğazımız qurumuşdu, danışa bilirdik məgər? Hə, di tez ol, get, mənə bir xəbər gətir...

Səfər getmək istəyir, birdən geri qayıdır.

S ə f ə r. Heç dayıdan söhbət düşmədi?

Ə l i q u l u. Düşdü, məsələni özü açdı, deyir, dayım xətrimi çox istəyir. Toydan sonra, deyir, sənin də xətrini istəyəcək.



S ə f ə r. Ən gözəl xəbəri axıra saxlamısınız ki... gedirəm, körək bişib, soyutmaq olmaz...

Ə l i q u l u. Mən burada oturacağam, Səfər, get, qoçağım, bu saat mənim ürəyimin də, kabinetimin də açarı sənin əlindədir.

S ə f ə r. Onda ehtiyatlı tərpənim, açar düşüb itər. (*Gedir*)

Əliqulu oturmaq istədikdə, birdən R ö v ş ə n içəri girir.

R ö v ş ə n. Ey! "Ə", indi gəl sənin-lə ayırd eləyək.

Ə l i q u l u. İşə düşmədik! Mənə nə var ey, get öz bacınla danış.

R ö v ş ə n. Bacımın bura nə dəxli var?

Ə l i q u l u. Məhəbbəti əvvəlcə o başlayıb.

R ö v ş ə n. A kişi, sən nə əxlaqsız adamsan! Demək mənim bacımla da başlamısan?

Ə l i q u l u. Ey, ey, cavan oğlan, dilini dinc qoy, yoxsa bilirsən neylərəm!..

R ö v ş ə n. Mənə neylərsən?

Hücum eləmək istədikdə, Y a s ə m ə n gəlib onu tutur.

Y a s ə m ə n. Rövşən, sən yenə başladın?

R ö v ş ə n. Yasəmən, bilmirsən bu kişi nələr danışır?

Y a s ə m ə n. Gəl, gəl, Humay bacı səni axtarır.

R ö v ş ə n. Yasəmən, bir dəqiqə aman ver. (*Əliquluya*) Bu saat, sənin o qoca sümüklərini bir-birinə qarışdıracağam. (*Əliquluya hücum çəkir, o, qaçır*)

Y a s ə m ə n. Vay... Nazlı, Humay... köməyə gəlin! İşin ən çətininə mənə tapşırıblar ki... (*Gedir*)

Rövşən Əliqulunu qovur. Onlar bu arada səhnəyə çıxan dondurmasatanla toqquşurlar, nəhayət, Əliqulu qaçıb telefon budkasına girir, içəridən qapını bərk bağlayır. Rövşən nə qədər çalışır, açа bilmir, budkanın dəstəyi qopub onun əlində qalır. Əliqulu oradan çıxıb qaçmasın deyə, Rövşən budkanın üzünü divara çevirir.

R ö v ş ə n (*Əliqulunu hədələyərək*). Orada qal, hələ sənin-lə işim var. (*Öz-özünə*) Gedim, Humay bacını bura gətirim, qoy öz gözüylə görüb inansın. (*Çıxır*)

X ə l i l və N a z l ı gəlir.

X ə l i l. Deməli, "hə" dedi?

N a z l ı. Bir dəfə yox, milyon dəfə.

X ə l i l. Əliqulunu ki, yola gətirdin, qızım, sən arxayın gedib, sirkdə işləyə bilərsən!

N a z l ı. İndi cavanları tapım, onlara da deyim.

X ə l i l. Get, mən də zəng eləyib, Gövhərə gözaydınlığı verim...

Nazlı gedir. Xəlil budkaya yaxınlaşır, təəccüblə dayanır.

X ə l i l. Deyəsən, telefon budkası küsüb üzünü divara çevirib. Bu nədir, tələdə adam var? Görüm kimdir? Əliqulu, orada nə eləyirsən?

Ə l i q u l u. İlişib qalmışam, Xəlil, kömək elə, çıxım buradan.

X ə l i l. Demədim bığı rənglətməyin bir əngəli çıxacaq?

Ha əlləşir, budkanı yerindən tərpədə bilmir. Bulvardan keçən iki oğlanı çağırır, onların vasitəsilə budkanı çevirir. Əliqulu budkadan çıxır.

X ə l i l. Bir az da gec gəlsəydim, lap konservaya dönəcəkdin. (*Əliqulunun getmək istədiyini görüb onu saxlayır*) Dayan, bir az söhbət eləyək.

Ə l i q u l u. Əşi, əl çək, iş xirtdəyimdəndir. (*Öz-özünə*) Doğrudan da, düz deyiblər: tikansız gül yoxdur. Gedim, qızla özüm danışım. Qardaşı lap zırrama imiş. (*Gedir*)

Xəlil, Gövhərə zəng eləmək üçün telefon budkasına girir.
Azad və Səadət kolyaska ilə gəlirlər.

S ə a d ə t. Bunu aparıb nömrədə qoyaq, sonra bir dəstə gül alıb tələsik qayıdaq.

A z a d. Gülü neyləyirik?

S ə a d ə t. Kamalla Qumral üçün. Bu gün onların gələcək ailələrinin bünövrəsi qoyulur.

A z a d. Etiraz eləmirəm. İşçimiz olacaqlar, indidən hörmət eləyək.

Xəlil onları görüb, budkadan diqqətlə baxır.

S ə a d ə t. Bu kişi Xəlil dayı deyil? Bizə nə diqqətlə baxır?

A z a d. Hə, Xəlil kişi, tanımadın?

X ə l i l. Sizin kimi müdirləri tanımamaq olar? Bu nədir, dünəndən bəri uşağınız oldu, hələ gəzməyə də çıxarmısınız?

S ə a d ə t. Kişi gör nə danışır ey!..

A z a d. Qabaqcadan ehtiyat görürük, faytonu aldıq ki, qonaq gələndə yeri rahat olsun.



X ə l i l. Əcəb eləmisiniz. Siz ki, belə ehtiyatlısınız, deməli, ikiniz də yaxşı müdirsiniz. Bircə dəqiqəliyə zəng eləyim, sonra sərində oturub söhbət eləyək.

S ə a d ə t. Siz oturun, biz mehmanxanaya dəyib, qayıdarıq. Azad, gəl, sonra gül almağa çatmarıq.

Çıxırlar. Xəlil yenə budkada telefonun nömrələrini yığmaqla məşğul olur.
Rövşən və Humay gəlir.

R ö v ş ə n. Mən istəyirəm, Humay bacı, sən özün onunla danışasan və görəsən ki, doğrudan da, Nazlı məni aldadır.

H u m a y. Hanı o kişi? Bu saat mən onun abrını töküm.

R ö v ş ə n. Budur, bax, burada.

Telefon budkasına yaxınlaşırlar.

H u m a y. A kişi, utanmırsan, xalqın arvadına, bacısına sataşırsan?

X ə l i l (*budkadan çıxır*). Humay xanım, mənimləsiniz?

R ö v ş ə n. Bu o deyil, Humay bacı! Səhv eləmişik.

H u m a y. Məni biabır elədin. Bağışla, Xəlil!

X ə l i l. Bu boyda da səhv olar? (*Rövşənə*) Tanımırsan məni?

R ö v ş ə n. Birinci dəfədir görürəm.

X ə l i l. Qubada alma məsələsi yadından çıxıb? Mən olmasaydım, gurup-guruppaz gedirdin ki...

H u m a y. Uşağı dolaşdırma, ay Xəlil! O, alma satan deyil. Bacımın əridir.

X ə l i l. Bacının əridir? Deməli, Rövşən budur? Salaməleyküm!

R ö v ş ə n. Bağışlayın, mənim qanım bir az qaradır.

X ə l i l. Bir "əleyküm" deməyə nə var ki?

R ö v ş ə n. Əleyküməssalam.

X ə l i l. Hə, indi get, o qanını qaraldan adamı tap, ver mənim ixtiyarıma, özün də qıraqdan dur bax, gör Xəlil kişi boks vurmaqda dünya rekordu qazanır, ya yox?

R ö v ş ə n. Boks vurmaqda mən özüm də pis deyiləm.

X ə l i l. Tap gətir, köməkli əzişdirək.

R ö v ş ə n (*yavaşdan*). Humay bacı, bu kişi kimdir?

H u m a y. Nə bilim, Allah bəndəsi.

R ö v ş ə n. Başa düşdüm. (*Xəlilə*) Qohum, gedirəm düşməni axtarmağa. (*Gedir*)

X ə l i l. Qohum? Mənə niyə qohum dedi?

H u m a y. Nə bilim? Rövşənin dalınca gedim, qorxuram xata çıxarda.

X ə l i l. Yanınızca bir kişi xeylağı getsə, etiraz eləməzsiniz?

H u m a y. Nə deyirəm ki...

Danışa-danışa çıxırlar. Əliqulu, Nazlı və Səfər gəlirlər.

Ə l i q u l u. Nazlı xanım, qardaşınız bir az şuluqluq eləyir.

N a z l ı. Qardaşım?

Ə l i q u l u. Bəli, az qala, məni bihörmət eləmişdi.

N a z l ı. Hə, bildim. Eybi yoxdur, əhvalatdan xəbər tutandan sonra özü gəlib sizdən üzr istəyəcək. Deməli, sabah axşam mən oğlanı götürüb gəlirəm, sizinkilər də hazır olsunlar. (*Çıxırlar*)

Ə l i q u l u. Oğlanı? Oğlan kimdir?

S ə f ə r. Qardaşını deyir də... Bəs, tək gəlsin? Yəqin qardaşı özü gülü bülbülə təqdim eləyəcək.

Ə l i q u l u. Qardaşı yaman davakardır. Gəlsə mərəkə qaldırmaz ki?

S ə f ə r. Nə qaldırır, qaldırsın. Kaş ki, toy eləyək, Muradov əlimizə keçsin.

Ə l i q u l u. İş lap yəqinləşdi. Arvadla məsələni təcili qurtarmaq lazımdır.

S ə f ə r. Əlbəttə. Bilsələr ki, evlisiniz, yaxşı çıxmaz...

Ə l i q u l u. Hərçənd ki, bir az ağlayıb-sızlayacaq, ancaq eybi yoxdur. Külək əsəndə toz qopar.

S ə f ə r. Dəvə oynayanda qar yağar.

Azad, Səadət və Yasəmən əllərində gül gəlirlər.

Y a s ə m ə n (*onlarla danışa-danışa*). Rövşən elə biabırçılıq çıxartdı ki, başımı götürüb qaçdım. (*Birdən Əliqulunu görüb*) Azad, qızın atasıdır, keç qabağa, təbrik elə!

A z a d. Təbrik eləyirik. Bütün kollektiv adından, hansı ki, bizim rayonun maarif şöbəsinin müdiri Səadət xanım, gənc yazıçı...

S ə a d ə t. Azad, uzatma, iclasda danışmırsan ki?

A z a d. Onda sözümü bitirərək deyirəm ki: bütün cavanlara qismət olsun!

Əliqulu utanıb başını aşağı salır.

S ə f ə r. Çox sağ olun! Gəlin, bəylə də görüşün.

Əliqulunu göstərir. Hamı Əliqulu ilə görüşür.



Ə l i q u l u. Utandığımdan dilim söz tutmur. Səfər, məndən əvəz təşəkkür elə!

S ə f ə r. Bəy razılıq eləyir, hamınızı toya çağırır. İcazənizlə, gedək hazırlıq görək.

Ə l i q u l u. Tut qolumdan.

Əliqulu ilə Səfər gedirlər.

Y a s ə m ə n. Bəs niyə Qumralın atasına bəy dedi?

A z a d. Yəqin köhnə bəylərdəndir.

Qumral, Kamal və Nazlı gəlirlər.

S ə a d ə t. Bütün muradlarına çatmış sevgililərə eşq olsun, içində də sizə! Azad, bunların gülünü gətir, ver!

A z a d. Yoldaşlar, bu gülləri sizə təqdim etməklə...

S ə a d ə t. Bir az yavaş danışa bilmirsən?

A z a d (*yumşaq səslə*). Bu güllər kimi təzə və ətirli olun! (*Gülləri onlara verir*)

K a m a l. Bu günün qəhrəmanı Nazlı xanımdır.

Q u m r a l. Güllər ona verilməlidir.

Gülləri Nazlıya verirlər.

Y a s ə m ə n. Bircə axırıncı pərdəm qalır. Orada da sizin toyunuz olacaq.

P ə r d ə

## DÖRDÜNCÜ PƏRDƏ

### DÖRDÜNCÜ ŞƏKİL

Yasəmən pərdə qabağına çıxır.

Y a s ə m ə n. Bu pərdədən qabaq sizə gizli bir söz demək istəyirəm. Öz aramızdır, deyəsən mən Nazlı ilə Rövşənin əlaqəsini yaxşılaşdırmaq əvəzinə daha da kəskinləşdirmişəm. Onları bu vəziyyətdə qoymaq olmaz. Mütləq tapıb barışdırmalıyam ki, əsas hadisənin inkişafına mane olmasınlar. O biri personajlardan arxayınam, işləri qaydasındadır. Gənclər öz arzularına nail olurlar. Xəlil kişinin toxuduğu tora Humay kimi bir

xanım düşdü. O ki, qaldı Əliqulu, onun da kefi kökdür. Bir sözlə, hamı toya hazırlaşır. Aha, deyəsən, gəlirlər. Mən tez aradan çıxım ki, dördüncü pərdə başlanır. (*Orkestrə müraciətlə*) Maestro, bir toy havası!

Musiqi sədaları altında pərdə açılır. Əliqulunun evi. Birinci pərdənin dekorasiyası. Gövhər paltar tikir. Qumral ona kömək eləyir.

G ö v h ə r. Yəqin bilirsən ki, bu axşam gələcəklər? (*Paltarı qızının əyninə ölçməyə başlayır*)

Q u m r a l. Hə, bağda atamla razılaşıblar. Sənə deməyib?

G ö v h ə r. Acıqlı idi, bir kəlmə də danışmadı.

Q u m r a l. Səbəbini bilmədin?

G ö v h ə r. Zəng çalındı, yuxulu-yuxulu gedib açdım, tanımadım, içəri buraxmaq istəmirdim, hirsləndi.

Q u m r a l. Ay ana, sən nə danışırsan? Atamı tanımadın?

G ö v h ə r. Neyləyim, a qızım?! Heç atanı o sifətdə görməmişdim. Bığını nazildib, rəngləyib... Gödək, dar kostyum... Nə bilim, qocalığında yorğalayır.

Q u m r a l. Bəs, səhər duranda danışmadınız?

G ö v h ə r. Mən tezdən durub bazara getdim. Gəlib gördüm ki, yoxdur, işə gedib. (*Paltara işarə ilə*) Yaxşıdırmı?

Q u m r a l. Lap yaxşıdır. Özün bilirsən ki, sən nə tiksən, xoşuma gələcək.

X ə l i l içəri girir. Onun qoltuğu doludur.

G ö v h ə r. Bu nədir belə, a Xəlil?!

X ə l i l. Sursat almışam. Gərək qonaqların qabağına yaxşı çıxaq.

G ö v h ə r. Sağ ol. Yaxşı ki, sən gəlmisən. Əliquludan mənə hay yoxdur.

X ə l i l. Əliquludan kimə hay var ki, sənə də olsun? Bu qırmızıdan beş şüşə almışam, çatar?

Q u m r a l. Ay dayı, içəcəklər də?

X ə l i l. Sən qarışma. Bizim vaxtımızda bu cür xeyir iş olanda, qızlar gedib oturardılar gərdəyin dalında. Utandıqlarından burunlarını çölə çıxarmazdılar.

Q u m r a l. Mən bir eyibli söz demədim ki, Xəlil dayı?

X ə l i l. Yaxşı, yaxşı, zarafat elədim. Bizim vaxtımızda çox işlər vardı, hamısını indi təkrar eləsən, dönüb olar yenə köhnə zamana. Təzə lampaya köhnə piltə taxmaq olmaz. (*Kamal gəlir*) Ay səni xoş gördük! Sizinkilər hazırlaşırlar?



K a m a l. Bəli, axşam gələcəklər.

X ə l i l. Gəl, otur yanımda. (*Kamalı yanında oturdur*) Gövhər, Kamalın bir qəşəng qohumu var. Çox şirindil qadındır. Adı nə idi onun?

K a m a l. Nazlı xanım.

X ə l i l. Onu demirəm, o birisini.

K a m a l. Humay xanım.

X ə l i l. Odur ha!.. Sənin nəyindir?

K a m a l. Əmim oğlunun ögey baldızı.

X ə l i l. Deməli, olur mənim bacım qızının nişanlısının əmisi oğlunun ögey baldızı. Lap yaxın qohum oluruq ki.

G ö v h ə r. Ay Xəlil, birdən aşiq olarsan ha!..

X ə l i l. Nə olar. Cavanlıqda başım işə qarışıq olub. İndi gərək əvəzini çıxam, ya yox?

K a m a l. Atam rayondan bir qoyun göndərib. Gətirdim, bəlkə axşama lazım olar.

G ö v h ə r. Lazım deyil, çox sağ ol.

X ə l i l. Niyə lazım deyil, haradadır?

K a m a l. Həyət qapısından içəri buraxdım.

X ə l i l. Ay-hay!.. Upravdom onun hər tükünə bir protokol bağlayar. Gəlin gedək. Gövhər, tez ol, görüləsi iş çoxdur.

Hamı çıxır. Ə l i q u l u ilə S ə f ə r içəri girirlər. Ayaqlarının ucunda gəzirlər və yavaşdan danışırlar ki, o biri otaqda eşitməsinlər.

Ə l i q u l u. Bura bax, Səfər, mənim başım qarışıq olacaq, restoranla danış, axşama yemək-zad düzəlt.

S ə f ə r. Toya heç kəsi çağırmırsınız?

Söhbət edə-edə gətirdikləri yeməli şeyləri divanın altında gizlədirlər.

Ə l i q u l u. Haray salmaq olmaz. Duyuq düşərlər. Bircə Muradov yoldaş özü gəlsə, bəsimdir. Bilmirəm, Nazlı xanımın onu çağırmaq yadına düşəcək, ya yox?

S ə f ə r. Çalıb-oxuyan necə?

Ə l i q u l u. Əlbəttə, belə həngaməni qarmonsuz eləmək olmaz. Hə, indi daha yubanma, get əvvəlcə idarəyə baş çək, de ki, Əliqulu Baloğlanoviç iclasdadır, oradan da get tapşırdıqlarımı elə. Mən də bu saat arvad ilə haqq-hesabımı üzüm.

S ə f ə r. Gedirəm, göz açıb yumunca təşkil eləyəcəyəm. (*Gedir*)

Əliqulu evdə olduğunu bildirməmək üçün çıxıb təzədən zəngi çalır. Gövhər qapını açır. Əliqulu içəri girir. Qumral, Xəlil, Kamal da onu qarşılamaq üçün səhnəyə çıxırlar. Kamal uzaqda dayanmışdır. Əliqulu onu görmür.

Gövhər. A kişi, iş vaxtı nə əcəb evə gəlmisən? Naxoşlamamısan ki?

Əliqulu. Yox, sənlə sözüm var, onunçün gəlmişəm.

Gövhər. Nə sözdür, Allah xeyir eləsin!

Qumral. Ata, səni bu kökə kim salıb?

Gövhər. Qızım, atan cavanlaşıb da...

Əliqulu. Necə yəni cavanlaşmışam, məgər qoca idim?

Xəlil (*Kamalı yaxına çağırır*). Gəl, gəl, yaxın gəl, qorxma, razılığını verib.

Əliqulu (*Kamalı görüb birdən dik atılır*). Sən yenə mənim evimə gəlmisən? Deməmişəm ayağın bura dəyməsin?!

Ona hücum etmək istəyir. Gövhər və Xəlil qolundan tutub qoymurlar.

Gövhər. Əliqulu, nə danışırsan, eyibdir!

Xəlil. Özümüzünküdür ey... Xeyir iş üçün gəlib.

Əliqulu. Xeyir iş? Sən onu haradan bilirsən?

Xəlil. Bu oğlan özü dedi.

Əliqulu. Mənə açıq deyin görüm, bu oğlan kimdir?

Kamal. Nazlı xanımın qohumuyam. Dünən axşam bulvarda sizinlə söhbət eləmirdi?

Əliqulu. Nazlı xanımın qohumusan? Səni o göndərdi?

Kamal. Bəli.

Əliqulu. Bunu bayaqdan de də! (*Onun yanına getmək istəyir, Gövhərlə Xəlil dava salacağından qorxub qoymurlar. Güclə onların əlindən qurtarıb Kamala yaxınlaşır*) Ay səni xoş gördük! (*Qucaqlayıb öpür*) Hə, danışmısan bunlara?

Kamal. Ucundan-qulağından.

Əliqulu. (*Gövhərə*) Razısan?

Gövhər. Razıyam, niyə razı olmuram ki?

Əliqulu. Əhsən, yaxşı cavab verdin! Qoy bir az ətraflı danışaq. (*Ətrafdakılara*) Keçin o biri otağa, qoyun ikicə kəlmə bu ağıllı arvadla söhbət eləyək.

Gedirlər. Səhnədə Gövhərlə Əliqulu qalır.

Əliqulu. Deməli, razısan?



Gövhər. Əlbəttə.

Əliqulu. Mən heç güman eləməzdim ki, iş belə asan həll olunacaq. Dedim yəqin başlanacaq şikayət, göz yaşları...

Gövhər. Xeyir işdə ağlamaq bizlərdə adət deyil.

Əliqulu. Gözəl adətiniz var. Ancaq başsız qoymaram, tez-tez göz olacağam.

Gövhər. Əlbəttə, uşağı başsız qoymaq olmaz ki...

Əliqulu. Uşağın eybi yoxdur. Qorxuram, sən bir az xiffət eləyəsən.

Gövhər. Xiffət eləsəm də... olacağa çarə yoxdur.

Əliqulu. Bəh, bəh! Səndə nə qədər sağlam düşüncə varmış, Gövhər! Neçə ildir bir yerdə yaşamışıq, belə mərifətli olduğunu bilməmişəm. Maşallah, gözəl yaşadıq, gözəl də ayrılırıq.

Gövhər. Niyə ayrılırıq ki? Elə bilirsən mən tamam köçüb Qumralgildə qalacağam? Elə şey olar?

Əliqulu. Qumralgildə? Dayan, dayan, deyəsən, axı mən "Şah İsmayıl"dan oxuyuram, sən "Əsli Kərəm"dən?

Gövhər. Heç nə başa düşmürəm.

Əliqulu. Başa düşməmək səndə elə cavanlıqdan vardı. Qoy sözümü açıq deyim. Mən bu vaxta qədər yaşadığım köhnə həyata yekun vurub, dəftər-kitabı bağlayıram.

Gövhər. Təqaüdə çıxırsan?

Əliqulu. Yox, yeni həyata başlayıram, dünyada hər şeyin əvvəli olduğu kimi, axırı da var. Köhnə həyatımı məhv eləyirəm.

Gövhər. Əliqulu, kursa girmisən, nədir?

Əliqulu. İncimə məndən, Gövhər!

Gövhər. Niyə inciyirəm ki?

Əliqulu. Özünü möhkəm tut, bir söz deyəcəyəm.

Gövhər. De, de, möhkəməm.

Əliqulu. Bilmirəm heç hansı tərəfdən başlayım?

Gövhər. Bir ucdan başla, üzü bəri gəl.

Əliqulu. Onsuz da razısan. Daha mətləbi niyə uzadım? Bilirsən, mən bu işə girişməzdim ha, ancaq... neyləyim?.. Sevir məni...

Gövhər. Kim sevir səni, ay Əliqulu?

Əliqulu. Bu oğlanın qohumu Nazlı xanım.

Gövhər. Nə olsun ki?

Əliqulu. O olsun ki, mən də onu sevirəm. Bir-birimizdən ayrı yaşamaq mümkün deyil.

Gövhər. Nə? İndi, deməli, məni atıb, onu alırsan?

Əliqulu. Özün dedin ki, olacağa çarə yoxdur.

Gövhər. Baxtın nə yaxşı açılıb, Əliqulu? Mübarək olsun!..

Əliqulu. Ay Gövhər, sən nə qədər yeni insansan!

Gövhər. Xoşbəxt olasınız! Nazlı xanımla sənin aranda otuz yaş təfavüt var!..

Əliqulu. Nə danışırsan, az olar.

Gövhər. Hə, onda lap bir-birinizə taysınız. Oğullu-qızlı olun. (*O biri otağın qapısını açıb çığırır*) Ay Qumral, ay Xəlil, gəlin bura!..

Əliqulu. Əşi, yığma camaatı, dayan sözümüzü qurtaraq!

Gövhər. Daha nə var ki? Sözünün canını dedin də.

Əliqulu. Qalır xırda-xuruş məsələlər. Deyirəm, o otaqda Qumral qalar, bu böyük otağı da ortadan tən yarı bölərik. Hələlik şkafla, sonra da usta çağıraram. Nə məsləhət görürsən?

Gövhər. Nə cür istəsən elə. Bəs bunlar nə oldular? (*Qumral ilə Xəlil gəlirlər*) Qumral, gəl, atanı təbrik elə! Xəlil, sən də xeyir-dua ver!

Xəlil. Nə olub ki?

Gövhər. Evlənir.

Xəlil. Kim evlənir?

Gövhər. Əliqulu. Özündən otuz yaş cavan bir arvad alır.

Xəlil. Əşi, qoy oturmuşuq...

Qumral. Ata! Ata, bu nə sözdür? Ola bilməz!..

Gövhər. Niyə ola bilmir? Onun toyunda mən ortadan çıxmayacağam, doyunca oynayacağam. Nişan-zad aparmısan? (*Barmağından üzüyü çıxardıb, ona verir*) Al, bu da təzə gəlinin üzüyü. Bu saat paltar da gətirərəm.

Əliqulu. Dayan görək, ay canım, heç nə gətirmə!

Gövhər. Yox, niyə? Mənimçün bundan əziz gün olar? Ay Xəlil, Əliqulu evlənir, nə durmusan? Hərəkət eləsənə!..

Xəlil. Düz deyirsən, bacı, sevinmək lazımdır. Hurray, əl çalın, toydur!

Gövhər. Qızım, sən niyə mat qalmısan? Bundan sonra iki anan olacaq, sevinsənə!

Qumral. Ata, bunlar nə danışarlar?

Xəlil. Mübarək olsun, mübarək olsun! (*Əliqulunu qucaqlayıb öpür*)



Əliqulu. Canım, siz məni hoydu-hoyduya götürmüsünüz, nədir?

Gövhər. Niyə, xeyir işdə ağlamazlar ki? Sevinərlər, gülərlər... Bu saat qırmızı paltarımı da geyəcəyəm.

Xəlil. Gedim, qoyunu kəsim?

Gövhər. Kəs, zurnaçı da çağır! Bu gün bütün şəhərə səs salaq: Əliqulu evlənir!

Əliqulu. Çığırma, eyibdir, qonşular eşidər.

Gövhər. Qoy eşitsinlər! Özüm bu saat hamısına xəbər verəcəyəm.

Əliqulu. İşə düşmədik? Qəribə xasiyyətiniz var, bir kəlmə söz demək olmur. Adamı biabır eləyirsiniz. (*Başı alovlu çıxır*).

Xəlil (*onun arxasınca*). Mübarək olsun, mübarək olsun!..

Gövhər (*Qumrala*). Çağır o oğlanı bura!

Qumral. Ana, Kamalın heç bir işdən xəbəri yoxdur.

Gövhər. Çağır!

Xəlil (*yan otağın qapısını açır*). Gəl bura, görək!

Kamal gəlir.

Gövhər (*Kamala*). Deməli, sən bizimlə ikibaşlı qohum olmaq istəyirdin? Qohumunu Əliquluya verib, qızını özün almaq istəyirdin?

Kamal. Başa düşmürəm.

Xəlil. Bu saat səni başa salım. Nazlı xanım Əliquluya ərə gedir!

Kamal. Bu nə cür ola bilər? Onun ki, əri var, Xəlil dayı. O ki, mənim əmim oğlunun arvadıdır.

Xəlil. Yəqin bir yolunu tapıb da.

Qumral. Biabırçılıq!

Kamal. Mən bu saat gedirəm onlara. (*Gedir*)

Gövhər Qumralı qucaqlayıb, hönkürtü ilə ağlayır. Səhnə qaranlıqlaşır.

## BEŞİNCİ ŞƏKİL

Hadisə pərdənin qabağında gedir. Rövşən gəlib telefon budkasına girir, haraya isə təcili zəng eləməyə başlayır. Bu zaman Yasəmən bir tərəfdən, Nazlı o biri tərəfdən səhnəyə çıxırlar. Rövşən cəld budkanın içində gizlənir.

Yasəmən. Nazlı, nə yaxşı rastlaşdıq! Sizə gəlirdim. Bəs, Rövşən hanı?

Nazlı. Yenə küsüb. Dünən bulvarda acıq eləyib gedəndir, tapa bilmirəm. Təqsir səndədir. Yasəmən, axı dedim ki, onu başa sal!

Y a s ə m ə n. Başa salmaq olur ki... Sən gözündən gedən kimi alışıb-yanmağa başlayır. Bu saat zəng eləyib onu taparam. (*Telefon budkasına yaxınlaşır, Rövşəni görür*) Rövşən, buradasan? A Nazlı, ərin gör harada gizlənib! Gəlin buradaca, tamaşaçıların qabağındaca barışın.

N a z l ı. Mən küsməmişəm ki.

R ö v ş ə n. Mən küsmüşəm. Məktub yazanla, Əliqulu ilə sevişdiklərini öz gözümlə gördüm. (*Yasəmən ilə Nazlı gülürlər*) Niyə gülürsünüz? Özün dedin ki, güclə bu kişini yola gətirirəm.

N a z l ı. Elçilik eləyirdim də...

R ö v ş ə n. Nə elçilik? Məni azdırma, həqiqəti indi başa düşmüşəm.

Y a s ə m ə n. Sənin həqiqətdən bu qədər uzaq vaxtın olmayıb.

N a z l ı. Rövşən, bu saat mən səni iki kəlmə ilə başa salım. Əmin oğlu Kamal o gördüyün kişinin qızını istəyir. Mən elçilik elədim, razılığını aldım.

Y a s ə m ə n. Biz hamımız bu işdə iştirak eləyirdik.

R ö v ş ə n. Bəs mənə nə üçün demirdin?

N a z l ı. Vaxt oldu ki? Biz barışan kimi, bu yandan da Əliqulu kişi gəlib çıxdı. Tez Yasəmənin qulağına pıçıldadım ki, Rövşənin başını qarışdır. (*Gülürlər*)

R ö v ş ə n. Bəs, sənə məktub yazan o deyil?

N a z l ı. O kişinin hay-hayı gedib, vay-vayı qalıb, qadınlara məktub yazan vaxtıdır?

R ö v ş ə n. Qocalığına nə baxırsan? Dəyirman xoruzu kimidir.

N a z l ı. Nədirsə, mənim vəzifəm onun razılığını almaq idi, yerinə yetirdim.

Y a s ə m ə n. İndi barışın ki, toyda dilxorçuluq olmasın.

R ö v ş ə n. Yəni düz deyirsiniz?

Y a s ə m ə n. Məni yalan danışan görmüsən?

R ö v ş ə n. Bağışla, Yasəmən, onu o qədər istəyirəm ki, tükü tərpənəndə küləklə vuruşmağa hazıram.

N a z l ı. Küləklə neyləyirsən elə, amma mənimlə işin olmasın.

Y a s ə m ə n. At, bu qısqanclığı, Rövşən, özünü gülünc eləmə, birkərəlik at!

R ö v ş ə n. Deyirsən atım?

Y a s ə m ə n. At!

R ö v ş ə n. Atdım, qurtardı!



Y a s ə m ə n. Bu cür təmiz qadını da qısqanarlar?

N a z l ı. Eh, a Yasəmən, qədrimizi bilən kimdir?

R ö v ş ə n. Üzr istəyirəm, Nazlı bağışla!

N a z l ı. Yüz dəfə bağışlamışam, bu da yüz birinci olsun.

R ö v ş ə n. Sən mənim nazlı-duzlu arvadımsan.

N a z l ı. Sən də mənim Rövşənimsən, dovşanımsan. İndi dovşan can, get, bir böyük dəstə gül bağlatdır, biz də evdə hazırlaşaq. Toy üçün nə lazımdırsa, əmin oğlu gətirib qoyub bizə.

Y a s ə m ə n. Tez ol, ha, axşama az qalır.

R ö v ş ə n. Quş kimi uçuram.

Yasəmən və Nazlı gedirlər. Rövşən bu biri tərəfdən yollananda K a m a l qabağına çıxır. Kamal çox bikefdir.

R ö v ş ə n. Əmioğlu! Yenə gizlin-gizlin işlər görürsən?

K a m a l. Əmioğlu! Bu saat eləyəm ki, bıçaq vursan, qanım çıxmaz.

R ö v ş ə n. Niyə? Nə olub ki, əmioğlu?

K a m a l. Qaş qayıran yerdə vurub göz çıxartmışam.

R ö v ş ə n. Yoxsa, Əliqulu yenə razı deyil?

K a m a l. Bağışla məni, Rövşən, onlar bir-birilə tanış olan gün, dağılaydı!

R ö v ş ə n. Açıq danış görüm, nə olub?

K a m a l. Mən evlənməkdənsə, Əliqulu evlənir...

R ö v ş ə n. Onun arvadı yox idi, bəyəm?

K a m a l. Var, niyə yoxdur? Arvadını boşayıb, tələsik toy eləyir.

R ö v ş ə n (*gülür*). Elə şey olmaz canım! Daha sən niyə bikef olursan? Xalqın bir qayınanası olanda, səninki iki olacaq.

K a m a l. Bilirsən, kimi alır?

R ö v ş ə n. Yox.

K a m a l. Nazlını.

R ö v ş ə n. Hansı Nazlını?

K a m a l. Bizim Nazlını.

R ö v ş ə n. Mənim arvadımı?

K a m a l. Aha...

R ö v ş ə n (*qəhqəhə ilə gülür*). Kamal, qızdırmalısan, nədir? Mən Nazlı ilə elə bu dəqiqə görüşdüm, biz ömürlük barışdıq.

K a m a l. Elə bu dəqiqə Əliqulu kişi arvadını boşadı, özü də dedi ki, Nazlını alıram.

R ö v ş ə n. Bəlkə, özü tək bu qərara gəlib?

K a m a l. Axşam toylarıdır... Nazlı razılıq verib, danışıblar.

R ö v ş ə n. Əşi, yalandır.

K a m a l. Ay əmioğlu! Bu boyda da yalan olar? Orada bir haray var ki, gəl görəsən.

R ö v ş ə n. Bəs mənə dedi ki, gül al gətir.

K a m a l. Qadın hiyləsidir də, öz toyunun gülünü də sənə aldırır.

R ö v ş ə n. Bu nədir, xəyanət? Bu boyda da ikiüzlülük olar? Fikrimə min söz birdən gəlir. Heç bilmirəm hansını əvvəl deyim?

K a m a l. Əmioğlu, sənə nə olub?

R ö v ş ə n. Elə bil min arı girib, başımda vızıldayır.

K a m a l. Rövşən, sakit ol!

R ö v ş ə n. Yenə min dənə pişik girib ürəyimi cırmaqlamağa başladı.

K a m a l. Rövşən, özünə gəl, Rövşən! (*Səhnədən çıxırlar*)

Pərdə açılır. Əliqulunun evi. Otaq şkaflar vasitəsi ilə iki hissəyə bölünüb. Bir tərəfdə Gövhər kefsiz oturub. Əliqulu bir kişi ilə öz tərəfinə gəlir.

Ə l i q u l u. Bax, evi tanıdın ki, yol da həyətdəndir. Axşam iyirmi beş nəfərlik yemək hazırla. Subaylıq belədir də... Gərək qonaqlarına yeməyi restorandan gətirdəsən. İndi tez get, nə lazımdır, düzəlt.

Əliqulu o adamı ötürüb geri dönür, otağı sahmana salmağa başlayır. Bir nəfər əlində qarmon, Gövhər tərəfdən içəri girir.

Q a r m o n ç u. Əliqulunun evi buradır?

G ö v h ə r. Xeyr, qardaş, bura deyil.

Q a r m o n ç u. Necə bura deyil? Mənə bu ünvanı veriblər. Qarmonçalanam. Tapşırıblar ki, tez gəl – toydur.

G ö v h ə r. Toy otağın o biri tərəfindədir.

Ə l i q u l u. Hə, mən burdayam, ay qarmonçalan, şkafların arasından gəl bura.

G ö v h ə r. Burdan keçmək olmaz. O otağın yolu həyətdəndir.

Ə l i q u l u. Belə qonşuluq olmaz, ay bacı, mənim qonağıma sən burdan yol verməlisən, ya yox? (*Qarmonçuya*) Gəl, qorxma, gəl!

G ö v h ə r. Yox, olmaz! Burdan yol yoxdur, həyətdən get.

Q a r m o n ç u. Biri deyir: gəl, o biri deyir: get. Dava-mərəkəyə düşmədik!..

Qarmonçu gedir. Əliqulu tərəfdən Səfər içəri girir.



S ə f ə r. Əliqulu, bəd xəbər, Əliqulu!

Ə l i q u l u. Çığırma, yavaş danış görək, nə olub?

S ə f ə r. Nazirlikdən əmriniz gəldi. Sizi işdən götürdülər. Müavininiz də o dəqiqə mənim əmrimi verdi. (*Əliqulu bərkdən gülür*) Nə olub? Bu cür xəbərə də gülərlər?

Ə l i q u l u. Doğrudan da, Sıfırsan! Əşi, sən nəyin dərdini çəkirsən? Sabah səhər tezdən Nazanı göndərəcəyəm dayısının yanına.

S ə f ə r. Ağlım bir şey kəsmir.

Ə l i q u l u. Ağıl var ki, kəssin? Hə, bəs bu qarmonçu nə oldu? Pis qonşu sənə nə deyim? Qoymadı kişi buradan gəlsin. Yəqin yolu tapmır, gedək, onu gətirək.

Çıxırlar. Səhnə arxasından musiqi səsi eşidilir. Qumral, Gövhər və Xəlil səsə gəlirlər.

G ö v h ə r. Yəqin təzəgəlindir. Xəlil, onları geri qaytar. Mənim evim xalxın ayağının altında qalmasın. Qumral, tez ol, bu evdən tamam çıxıb gedək.

Q u m r a l. Gedək, anacan, gedək.

X ə l i l. Ay canım, bir səbrinizi dərin.

G ö v h ə r. İyirmi beş il səbr elədim, bəsdir.

X ə l i l. Gövhər, sözüm var ey, Gövhər! (*Gedirlər*)

Əliqulu, Səfər və qarmonçu gəlirlər.

Ə l i q u l u (*musiqiyə qulaq asır*). O nə darambadurumdur.

S ə f ə r. Yəqin gəlirlər də...

Ə l i q u l u (*qarmonçuya*). Tez ol, çıx balkona, başla çalmağa!

Qarmonçu balkona çıxır, çalmağa başlayır. Əliqulu həyəcan içində ora-bura qaçır.

Ə l i q u l u. Səfər, nə durmusan? Əl at qalstukuma, zəhrimar hey sürüşür. Şlyapanı tap, bura gətir!

S ə f ə r. Haradadır?

Ə l i q u l u. Nə?

S ə f ə r. Şlyapa.

Ə l i q u l u. Bu istidə şlyapanı neyləyirəm?

S ə f ə r. Özünüz istəmədiniz?

Ə l i q u l u. Yadımda deyil, darağını mənə ver.

S ə f ə r. Başımda tük yoxdur, ona görə daraq işlətmirəm.

Ə l i q u l u. Götür o gül dəstəsini, düşək həyətə, gəlini təntənə ilə qarşılayaq. (*Gedirlər*)

Nazlı, Humay, Yasəmən, Səadət və Azad bu biri tərəfdən içəri girirlər. Humayın əlində xonça var.

N a z l ı. Bəs, bizi heç kəs qarşılamadı?

H u m a y. Evdə adam yoxdur, nədir?

Y a s ə m ə n. Bu qəribə nişandır! Qız yoxdur, oğlan da ilim-ilim itib...

S ə a d ə t. Köhnə qayda ilə oğlan gəlməməlidir.

A z a d. Kamal cavan oğlandır, gərək köhnə qayda-qanuna sığışmaya axı.

H u m a y. Kamal elə burada bizi gözləməlidir.

N a z l ı. Mən Rövşəndən nigaranam. Bilmirəm, yenə harada qaldı? Gül almağa göndərmişdim, gəlib çıxmadı.

Y a s ə m ə n. Çalanlar nə oldu?

H u m a y. Dedim həyətdə dayansınlar, vaxtı çatanda səsləyərik.

N a z l ı. Bu olmadı. Qabağımıza ki, heç kəs çıxmır, deməli, razı deyillər də...

H u m a y. Heç elə şey olar? Bu saat mən çağıraram. Ay ev yiyəsi! (*Xəlil gəlir, salam vermədən kefsiz dayanır*) Xəlil, niyə bir "xoşgəldin" demirsiniz? Nişan gətirmişik.

X ə l i l. Kimə, qıza, yoxsa atasına?

N a z l ı. Bu nə sözdür? O yaşda kişiyə də nişan gətirərlər?

H u m a y. Qumrala gətirmişik ey, Qumrala!

X ə l i l. Əşi, qoy oturmuşuq!..

Y a s ə m ə n. Kamal üçün sizin bacınız qızı Qumralı istəyirik.

X ə l i l. Kamal üçün, Qumralı? Əcəb işdir! Bəs sərhəddən o tərəfə keçməyəcəksiniz? (*Şkafları göstərir*)

N a z l ı. Orda nə var ki?

X ə l i l. Orda da toy var, Nazlı xanım, sizi gözləyirlər.

N a z l ı. Heç nə başa düşmürəm. Şkafın o tərəfində mənim nə işim var, Xəlil dayı! Sən Qumralın anasına de, çıxsın qabağımıza!

X ə l i l. Belə mənim bu gözlərim üstə! Ay Gövhər! Ay Gövhər çıx qabağa!.. Yox, o bir az incikdir, gəlməz. Yaxşısı budur, siz bu otağa buyurun.

Hamı çıxır. K a m a l və R ö v ş ə n tələsik Gövhər tərəfdən içəri girirlər.



K a m a l. Heç kəs yoxdur.

R ö v ş ə n. Bəlkə gecikmişik, iş-işdən keçib?

K a m a l. Yəqin o tərəfdədirlər. Balkonda qarmon çalınır. Görürsənmi, arvadından ayrılıb, böyük otağı tən yarıdan necə bölüb?!

R ö v ş ə n. Ax, ikisi də düşsünlər əlimə!.. Gəl, bu şkafın üstündən aşıb keçək.

K a m a l. Yaxşı deyil, həyətdən gedək. Mən o yolu yaxşı tanıyıram.

Çıxırlar. Onlar gedən kimi X ə l i l və G ö v h ə r səhnəyə çıxırlar.

G ö v h ə r. Xəlil, bu Nazlı xanımın heç nədən xəbəri yoxdur ki...

X ə l i l. Əliqulu ya keflidir, ya da qızdırmalı.

G ö v h ə r. Deməli, onda o, ayrı adamı alır?

X ə l i l. Mən bilən heç kəsi almır. Oğlan evində toydur, qız evinin xəbəri yoxdur...

Q u m r a l gəlir.

Q u m r a l. Ana can! Gördün mən deyən oldu, ana can? Kamalın heç nədən xəbəri yoxdur.

G ö v h ə r. Gəl, səni öpüm, qızım, xoşbəxt olasan!

X ə l i l. İndi sən Xəlil dayının sözünə inandın? Mən "öldü var, döndü yoxdur" nəslindənəm.

G ö v h ə r. Onun böyük bacısı səninlə çox əzilə-əzilə danışır, ay Xəlil, bu nə işdir?

X ə l i l. Yaxşı, utandırma məni.

G ö v h ə r. Qonaqları tək qoymayaq. Sən, Xəlil, get onların başlarını söhbətə tut, biz Qumralla çay hazırlayaq.

X ə l i l. Ürəyim istəyən adamlarla söhbətə varam. (*Çıxırlar*)

Əliqulu ilə S ə f ə r bu biri tərəfdən səhnəyə gəlirlər.

Ə l i q u l u. Əlli-ayaqlı itdilər. Sən bilən hara getmiş olarlar?

S ə f ə r. Əliqulu Baloğlanoviç... Bəlkə?

Ə l i q u l u. Əşi, kəs səsini, görək! Mənim başıma fırlanmaqdansa, aşağıda qarovullarını çəkə bilmirdin?

Qapı döyülür.

S ə f ə r. Gəldilər.

Ə l i q u l u. Qarmonçuya deyən başlasın.

Əliqulu təntənə ilə oturur. Səfər "Buyurun, buyurun" deyə qapını açır. K a m a l və R ö v ş ə n içəri girirlər.

Ə l i q u l u. Sizə kim lazımdır?

R ö v ş ə n. Sən lazımsan. Hanı Nazlı, bu saat yerini de!

Ə l i q u l u. Aha, sən onun qardaşısan? Xoş gəlmisən!

R ö v ş ə n. Bu saat mən sənə necə qardaş olduğumu göstərərəm.

K a m a l (*onu qoymur*). Əmioğlu, atan yaşında kişidir, özünü ələ al!

Nazlı və Yasəmən o biri tərəfdən çıxırlar.

Ə l i q u l u. Ey, cavan oğlan, namərdlik eləmə, belə gündə adamın yaşını artırmazlar.

N a z l ı. Rövşənin səsidir, yəqin bizi axtarır. Rövşən, haradasan, Rövşən?!

R ö v ş ə n. Nazlı, qorxma, gəlirəm. (*Ora-buranı axtarır, tapmır. Əliquluya*) Bu saat yerini de görüm, onu harada gizlətmisən?

Ə l i q u l u. Əşi, mən onu tapmışam ki, gizlədim? Görmürsən Əslisini axtaran Kərəmə dönmüşəm?

R ö v ş ə n. Yalan deyirsən! Çəkil buradan, çıx buradan!

Əliquluya hücum edir, onu və Səfəri qovub otaqdan çıxarır. Şkafı itələyib ortanı açır. Rövşən və Kamal bu biri tərəfə keçirlər. Azad və Səadət səsə çıxırlar.

R ö v ş ə n. Nazlı, haradasan, Nazlı?

N a z l ı. Burdayam, Rövşən, bura gəl! Bıy, bəs gül hanı?

R ö v ş ə n. Gül vaxtı deyil, sən mənim əlimdən gedirsən.

N a z l ı. Mən sənin əlindən hara gedirəm?

R ö v ş ə n. Bu kişinin evinə. Deyirlər məni atıb bu qocaya ərə gedirsən?

Y a s ə m ə n. Qısqanc adamın başına nə qəribə fikirlər gələrmiş!

N a z l ı. Rövşən, sən yenə əhdini, andını unutdun? Beyninə yenə ilan-qurbağa girdi? De görüm, bu xəbəri sənə kim verdi?

R ö v ş ə n. Kamal. Ona inanmayım, bəs kimə inanım?

N a z l ı. Kamal, bu sənin "sağ ol" deməyindir? Biz sənin üçün nişan gətirmişik, sən əvəzində məni biabır eləyirsən?

A z a d. Əvəz-əvəz çıxır da. Sən onu evləndirirsən, o da səni ərə verir.

S ə a d ə t. Azad, bəsdir!

K a m a l. Nazlı, bağışla! Məni də bu kişi yoldan çıxartdı. Qumralın atasına da inanmayım, bəs, kimə inanım?

R ö v ş ə n. Siz mənə göstərin, görüm, Kamalın nişanlısı haradadır? Qumral kimdir?



Y a s ə m ə n. Budur, gəlirlər.

Qumral, Xəlil, Gövhər, Humay səhnəyə gəlirlər.
Bu zaman Əliqulu ilə Səfər də həyətdən hərlənib bu tərəfə gəlirlər.

X ə l i l. İcazəsiz sərhədi keçiblər ki?

Ə l i q u l u. Xəlil, arxayın ol! Biz bu saat qayıdarıq öz yuvamıza. Bir göyərçinimiz səhvən uçub sizin tərəfə, onu aparmağa gəlmişik. Naza xanım, buyurun!

N a z l ı. Hara, Əliqulu əmi?

Ə l i q u l u. Necə yəni hara? Öz evimizə! Sizinlə mənim aramda "əmi" nədir, "dayı" nədir? Sadəcə adımı deyin: Əliquluşa.

G ö v h ə r. Əliquluşa, gəlinlə qonşuları da tanış eləsənə!

Ə l i q u l u. Sən mənim işimə qarışma, bacı!

N a z l ı. Səadət, Yasəmən, görürsünüz? A yoldaş, bu qəribə fikir sizin ağlınıza haradan gəldi?

Ə l i q u l u. Necə yəni haradan gəldi? Dünən bulvarda sizinlə danışmadıq?

N a z l ı. Bulvarda mən sizinlə Kamalla Qumral haqqında, onların bir-birinə olan sevgiləri haqqında danışırdım. Ona görə məktub yazıb, Xəlil kişi ilə göndərdik ki, bulvara gələsiniz.

Ə l i q u l u. Məktub? Məktubu siz yazmışdınız?

S ə f ə r (*Nazlını iyləyir*). Özüdür ki, var. Ədqalonun iyindən bildim.

Ə l i q u l u. Xəlil, bəs, deyirdin məktub yazanı tanımıram?

X ə l i l. Siyasət işlədirdim. Demədim ki, mən işə girişsəm, qabağımda Əliqulu-Məliqulu davam gətirməz?

Ə l i q u l u. Yaxşı, Xəlil, səninlə söhbətim qalsın sonraya.

H u m a y. Yaman siyasətcil kişisən, ha!

Ə l i q u l u (*Nazlıya*). Tutaq ki, bu oğlan mənim qızımı istəyir. Ondan sizə nə var?

N a z l ı. Kamal ərim Rövşənin əmisi oğludur.

Ə l i q u l u. Sıfır, bəs, deyirdin əri yoxdur?

S ə f ə r. Mənə o cür məlumat vermişdilər. Əliqulu Baloğlanoviç, yəqin bacıları tay-dəyişik salıblar...

Ə l i q u l u. Məsələ haçalaşdı ki...

S ə a d ə t. Əliqulu Baloğlanoviç! A kişi, neçə gündür səni idarədə tapa bilmirəm.

A z a d. Səadət, əsəbiləşmə! Sənə yaramaz!

S ə a d ə t. Dayan, Azad! (*Əliquluya*) Şikayətçilər görməsinlər deyə, dal qapıdan qaçırsan?

Ə l i q u l u. Bacı, əl çək! Mənim öz dərdim özümə bəsdir.

Y a s ə m ə n. Yeri deyil, Səadət, Kamalla Qumral gözləyirlər. Nazlı, sən də Rövşəni görüb, işi yaddan çıxartma!

N a z l ı. Bu saat, Humay, xonçanı gətir!

H u m a y. Xəlil kişi, mənə kömək eləyərsən?

X ə l i l. Bu dəqiqədən ömrümün axırına kimi.

Humayla Xəlil xonçanı gətirirlər...

N a z l ı. Gövhər xala, Qumralla Kamal bir-birlərini sevirlər. Biz nişan gətirmişik.

Ə l i q u l u. Qaytarın geri! Mən qətiyyən razı deyiləm!

G ö v h ə r. Sənin daha razılığını istəyən yoxdur, Əliqulu!

Ə l i q u l u. Necə yəni istəyən yoxdur? Qız mənim qızım deyil? Qumral deyil? (*Ona yaxınlaşmaq istəyir*)

Q u m r a l. Dayan! Evini, ailəni, bircə dəqiqənin içində dağıtdın. İyirmi beş il başına pərvanə kimi dolanan bir arvaddan elə ayrıldın ki, "uf" da demədin. Mən sənə necə ata deyim?

Ə l i q u l u. Gövhər, bir işdir oldu, yuyub ağartma! Bağışla məni!

G ö v h ə r. İndi daha gecdir. Mən özümü sənin yolunda qurban vermişdim. Qədrimi bilmədin, heç olmasa bu qızından utanaydın. Sənin kimilər "ata" və "ər" adını danışmağa layiq deyil!

Q u m r a l. Ana can, sən mənim həm anam, həm də atamsan.

N a z l ı. Söz sizindir. Biz cavab gözləyirik.

G ö v h ə r. İndi ki, söz mənimdir, mən deyirəm ki, xoşbəxt olsunlar. (*Qumralla Kamala*) Hər ikinizi öpürəm, övladlarım.

Ə l i q u l u. Evin yıxılsın, Səfər!

S ə f ə r. Yıxıldı da... Muradov nədir, fələk də düzəldə bilməz.

R ö v ş ə n. Əmioğlu, neyləyirsən elə, amma qısqanma! Canımçun işdən-gücdən avara qalarsan.

K a m a l. Əmioğlu, sən toydan söhbət sal. Gör haçandır? O barədə heç danışan yoxdur.

R ö v ş ə n. Bu saat. Ay qız evi! Bir sualımız var: nişan elədik, bəs, toy nə vaxtdır?

G ö v h ə r. Qız sizindir. Nə vaxt istəsəniz, apara bilərsiniz.

S ə a d ə t. Toy bizim rayonda olacaq. Qoy, Qumralla Kamalın ilk addımları həyatda toyla başlansın.



Q a r m o n ç u (*içəri girir. Əliquluya*). Ay yoldaş, ay bəy, balkonda külək məni qurutdu. De görüm toy olacaq, ya yox?

Y a s ə m ə n. Hə, Əliqulu, cavab ver! Evlənirsən, evlənmirsən?

Ə l i q u l u. Hər şey bitdi. İt də getdi, ip də. Daha pərdəni salmaq olar.

G ö v h ə r. Buyurun içəri! Şirin çay için!

Y a s ə m ə n. Salın pərdəni! (*Pərdə yavaş-yavaş enir. Yasəmən pərdə qarşısına çıxır*) Bununla da Əliqulunun məzhəkəsi bitir. Sağ olun, dostlar!

P ə r d ə

*1957*

# YALAN

*3 pərdəli, 14 şəkilli komediya*

## İŞTİRAK EDƏNLƏR

Ş ə l a l ə – gözəl bir qadın
T ə r l a n x a n ı m – Şəlalənin xalası
U m u d – Şəlalənin əri, tikiş fabrikinin müdiri
A s l a n – Şəlalənin birinci əri
F ə r m a n – taksi sürücüsü
S a l e h – Şəlalənin ikinci əri, fabrikdə plan şöbəsinin müdiri
R ə f i q ə – Salehin arvadı, fabrikin işçisi
B i l a l k i ş i – Salehin atası
G ü l l ü x a l a – Salehin anası
K ə k l i k – tikiş fabrikində müdirin katibəsi
X u m a r, Z ə k i } – tikiş fabrikinin işçiləri
Ş a m i l – müdir müavini

## BİRİNCİ PƏRDƏ

### BİRİNCİ ŞƏKİL

Küçə. A s l a n gəlib ətrafa diqqətlə baxır, heç kimsənin olmadığını görüb fit çalır, əlində portfel olan F ə r m a n tələsik səhnəyə çıxır.

F ə r m a n. Buyur, şef!

A s l a n. Tez ol, danış.

F ə r m a n. İzinə düşmüşəm.

A s l a n. Ətraflı.

F ə r m a n. Tapmışam, qarabaqara izləyirəm. Bir-iki günə əli-qolu bağlı gətirəcəyəm qulluğuna.

A s l a n. Yenə yalan?

F ə r m a n. Yalan həyatımızın bəzəyidir.

A s l a n. Kəs səsini, nəyə lazımdır o həyat ki, bəzəyi yalan ola?

F ə r m a n. Nə danışırsan, şef, yalansız ayaq atmaq mümkün deyil. Yalan daş-qaş içində parıldayan gözəl qadın kimidir.



A s l a n. O cür qadına yaxınlaşıb görürsən ki, gözəlliyi də, əynində parıldayan daş-qaşı da saxtadır. Mənə bəzəkli söz lazım deyil. Düz danış, çılpaq.

F ə r m a n. Soyunub danışım?

A s l a n. Fərman, bu saat ənin ciyərini çıxardıb qoyaram cibimə, xəbərin olmaz. Ələ salırsan? Bilmirsən, mənimçün hər gün, hər saat qiymətlidir? Uzatma, de görüm, tapmısanmı, ünvanını öyrənmisənmi?

F ə r m a n. Öyrənmişəm deyəndə...

A s l a n. Yalansız.

F ə r m a n. Yalansız danışa bilmirəm, axı. (*Aslan əsəbi halda dönüb getmək istədikdə onu saxlayır*) Yaxşı, indi ki, düzünü istəyirsən, deyim, heç nə öyrənə bilməmişəm. Neyləyim? Yalnız adını mənə demisən, Saleh...

A s l a n. Bəli. Saleh... Bu ad neçə ildir məni yuxuya həsrət qoyub, bu ad...

F ə r m a n (*onun sözünü kəsir*). Bu adda o qədər adam var ki... Familiyasını bilsəydim...

A s l a n. Familiyasını bilsəydim özüm məlumat bürosundan öyrənərdim. İtil gözümdən, yenə hirsim başladı tvist oynamağa. Gecə-gündüz işləyib, üç illik dustaqlıq vaxtımı iki ilə saldırmışam. Bilirsən nə üçün?

F ə r m a n. Niyə bilmirəm? İntiqam üçün.

A s l a n. Neçə yerə işə göndərdilər, getməyib bura, bu şəhərə gəlmişəm. Nə üçün?

F ə r m a n. İntiqam üçün.

A s l a n (*onu yamsılayır*). İntiqam üçün... Sənə ümid olsam, intiqam ürəyimdə bir yara kimi qalar. Hələ adını dost qoymusan, mənə şef deyirsən?

F ə r m a n. Dostluğuma şübhə eləyirsən? Bax, bu başımı kəs apar, bir kəlmə söz deməərəm.

A s l a n. Nəyimə lazımdır? Öz başımı bədənimdə saxlaya bilmirəm.

F ə r m a n. Şef, and içirəm...

A s l a n. Kəs səsini! Bunun görkəminə bax! Portfel nədir gəzdirirsən?

F ə r m a n. Heç...

A s l a n. Necə heç? Cavab ver!